

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## "Ölkəmiz iqlim dəyişmələri ilə qlobal mübarizədə liderlik nümayiş etdirir"




COP29 ilə əlaqədar Təşkilat Komitəsinin dördüncü iclası keçirilib

3


# SƏS

№ 098 (7023)

4 iyun 2024-cü il.
Qiyməti 60 qəpik


## "Azərbaycan Avropa İttifaqının enerji təhlükəsizliyinə böyük töhfə verir"



2

*Prezident İlham Əliyev Beynəlxalq Enerji Agentliyinin icraçı direktorunu qəbul edib*

# Sülh müqaviləsi COP29-da imzalana bilərmi?

*Ermənistan və Azərbaycan qlobal istiləşmədən faydalanmağa hazırlaşır*



5

## Qlobal dünyada miqrasiya nədir?



10

## "Vardanyan törətdiyi əməllərə görə uzunmüddətli həbs cəzasına layiqdir"




2

## Bu gün Bakıda 35, rayonlarda 36 dərəcə isti olacaq



16

## 4 İyun Gəncə qiyamından ötən 31 il



11

## Qız tələb olunur... - PAMFLET



9



# “Azərbaycan Avropa İttifaqının enerji təhlükəsizliyinə böyük töhfə verir”

## Prezident İlham Əliyev Beynəlxalq Enerji Agentliyinin icraçı direktorunu qəbul edib



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də Beynəlxalq Enerji Agentliyinin icraçı direktoru Fatih Birolu qəbul edib. söhbət zamanı dövlətimizin başçısı ilə Fatih Birolun bundan əvvəlki görüşü məmnunluqla xatırlandı.***

Görüşdə COP29-a hazırlıqla bağlı Azərbaycanda görülən işlər barədə fikir mübadiləsi aparıldı. Ölkəmizlə Beynəlxalq Enerji Agentliyi arasında səmərəli əməkdaşlığın həyata keçirilməsindən məmnunluq bildirildi. Azərbaycanda yaşıl enerjinin inkişafı istiqamətində atılan uğurlu addımlar qeyd edildi, ölkəmizin Avropa İttifaqının enerji təhlükəsizliyinə verdiyi töhfə vurğulandı. Söhbət zamanı əməkdaşlığın perspektivləri müzakirə olundu.

# “Vardanyan törətdiyi əməllərə görə uzunmüddətli həbs cəzasına layiqdir”

## İsrailli jurnalist Vardanyanın həbsdə olmasını əsaslandırıb




***Vardanyan yer üzündə sərbəst gəzərkən törətdiyi əməllərə görə uzunmüddətli həbs cəzasına layiqdir. AZƏRTAC xəbər verir ki, bunu Dona Qrasiya Diplomatiya Mərkəzinin təsisçisi və baş direktoru, tanınmış siyasi şərhçi və jurnalist Reyçel Avraham baş qərargahı ABŞ-ın Nyu York şəhərində yerləşən Xarici Siyasət Assosiasiyasının xəbər saytında dərc olunmuş məqaləsində yazıb.***

”Vardanyan dəmir barmaqlıqlar arxasında olmalıdır” sərlövhəli məqalədə yazılıb ki, Azərbaycan hakimiyyətinin həbs edərək barəsində istintaq apardığı erməni separatçısı Ruben Vardanyan paralel olaraq Ukrayna hökuməti tərəfindən də ittihamlarla üzləşir. Siyasi və cinayətkar fəaliyyətindən bixəbər bəzi insanların Vardanyanın həbs səbəbini anlamadığını vurğulayan müəllif adıçəkilən şəxsin azadlıqda etdiyi bütün əməllərə görə uzunmüddətli həbs cəzasına layiq olduğuna diqqət çəkib.

Məqalədə, həmçinin diqqətə çatdırılıb ki, cinayətkar fəaliyyətinə çirkli pulların yuyulması da daxil olan Vardanyanın biznes şirkətləri Qərbin iqtisadi sanksiyalarına məruz qalıb. Bildirilib ki, Vardanyan Azərbaycan ərazisi olan Qarabağdan Ermənistan ərazisinə qaçmağa cəhd edərkən Azərbaycan-Ermənistan sərhədində Azərbaycan hərbçiləri tərəfindən həbs olunub. Azərbaycan tərəfi Vardanyanı Azərbaycanla Ermənistan arasında sülh prosesini sabotaj etməkdə, sərhədi qanunsuz keçməkdə, terrorçuluğu maliyyələşdirməkdə və şəxsən Azərbaycana qarşı yönəlmiş erməni terrorizmi ilə əlaqəli olmaqda ittiham edir. Eyni zamanda, qeyd olunub ki, Vardanyan erməni separatçı quldur dəstələrini Azərbaycan Ordusuna qarşı istifadə üçün pul və sursatla təmin etmək məqsədilə beynəlxalq hüquqi baxımdan Azərbaycan ərazisi hesab olunan Qarabağa qanunsuz keçib. Erməni separatçılarının Vardanyandan aldıqları silahların miqdarı o qədər çoxdur ki, bu günədək həmin silahlar aşkar olunmaqdadır. Müəllif dəfələrlə Azərbaycan hökumətini hədələyən Vardanyanın sözügedən ittihamları heç vaxt təkzib etmədiyini, habelə Azərbaycanın bir çox siyasi və dövlət xadiminin qətli ilə nəticələnən “Nemezis” terror əməliyyatını həyata keçirən erməni terrorçularını açıq-aşkar tərənnüm etdiyini vurğulayıb.

İsrailli politoloq yazısının sonunda belə bir bəyanatla çıxış edib: “Vardanyan təhlükəli insandır, millətçi baxışlarına görə ekstremistdir, terroru maliyyələşdirir, kölgəli adamlar dairəsinə daxildir, onu Qərbin düşmənlərindən biri və üstəlik, maliyyə cinayətkarı adlandırmaq olar. Bütün dünyada insanlar bu adamın layiq olduğu yerdə - dəmir barmaqlıqlar arxasında qalmasına sevinməlidirlər”.

Məqaləni ətraflı şəkildə linkə keçid edərək oxumaq mümkündür.

# İna Koşeru: “COP29 iqlim dəyişikliyi ilə bağlı problemlərin həllinə öz töhfəsini verəcək”

***Bu il “Şərq Tərəfdaşlığı” təşəbbüsü regionunda çox vacib beynəlxalq konfrans Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) keçiriləcək. Bu tədbir Bakıda təşkil olunacaq. Biz azərbaycanlı həmkarlarımızın uğuruna sevinirik. Biz bilirik ki, bu cür mötəbər tədbiri üzərinə götürmək nə dərəcədə məsuliyyətli və çətin işdir. Bakı beynəlxalq səviyyədə bütün ölkələrin nümayəndələrini qəbul edəcək. Mən Azərbaycan dövlətinə, oradakı həmkarlarımıza bu işdə uğurlar arzulayıram.***



Bu sözləri AZƏRTAC-a eksklüziv müsahibəsində Moldova Parlamentinin Xarici siyasət və Avropaya inteqrasiya komitəsinin sədri İna Koşeru söyləyib.

COP29 tədbirinin olduqca vacibliyini və əhəmiyyətini vurğulayan komitə sədri deyib: “XXI əsrdə yaşayırıq, bizim üçün ən böyük problem iqlim dəyişikliyidir. Dünyada iqlim dəyişikliyi, su resurslarının azalması dünya ölkələrinə yeni prinsiplərin, texnologiyaların tətbiqini təşviq edir.

Yəni, iqlim dəyişikliyinin qarşısını almaq üçün yeni texnologiyalar tətbiq edilməlidir. O texnologiyalar ki, ilk növbədə, istixana qazlarının azalmasına səbəb olsun. Bu, enerji sahəsində baş verməlidir. Qazıntı yanacağı, o cümlədən kömür azaldılmalıdır, alternativ, yaşıl enerji mənbələrindən istifadə edilməlidir. Enerji sektoru iqlim dəyişikliyin əsas amillərindən biridir. Əgər istixana qazlarının azalmasını təşviq edən texnologiyalar tətbiq olunsa, meşə örtüyü artırılsa, - bu, Moldovada da çox aktualdır, - iqlim dəyişikliyinin qarşısı alınar”.

İna Koşeru hesab edir ki, Bakıda keçiriləcək COP29 qeyd olunan problemlərin müzakirəsi üçün əla platformadır və bunların həllinə öz töhfəsini verəcək.

“Azərbaycan dövlətinə təşəkkür edirik ki, bu cür vacib beynəlxalq tədbirin keçirilməsinə razılığını verib. Biz bu gün iqlim dəyişiklikləri ilə bağlı problemləri həll etməsək, gələcəkdə uşaqlarımız ciddi təhlükələrlə qarşılaşa bilərlər”, - deyə Moldova Parlamentinin Xarici siyasət və Avropaya inteqrasiya komitəsinin sədri vurğulayıb.

# “Ölkəmiz iqlim dəyişmələri ilə qlobal mübarizədə liderlik nümayiş etdirir”

## *COP29 ilə əlaqədar Təşkilat Komitəsinin dördüncü iclası keçirilib*






İyunun 3-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ilə əlaqədar Təşkilat Komitəsinin dördüncü iclası keçirilib. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri, Təşkilat Komitəsinin sədri Samir Nuriyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıqlarına uyğun olaraq sonuncu iclasdan keçən müddətdə COP29 üzrə Tədbirlər Planının icrası istiqamətində görülmüş işlər barədə məlumat verib.

Təşkilat Komitəsinin sədri bildirib ki, hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz iqlim dəyişmələri ilə qlobal mübarizədə nümunəvi liderlik nümayiş etdirir. Samir Nuriyev vurğulayıb ki, Prezident İlham Əliyevin müxtəlif çıxış və müsahibələrində açıqladığı vacib istiqamətlər, səsləndirdiyi tezislər Azərbaycanın COP29 üzrə fəaliyyətinin əsasını təşkil edir və dövlət başçısının inkişaf etməkdə olan kiçik ada dövlətlərinin iqlim dəyişmələri kontekstində üzləşdikləri problemlərin həllinin ölkəmizin prioritetlərindən biri olaraq bəyan etməsi beynəlxalq ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılanıb.

Samir Nuriyev şəffaflığın və inklüzivliyin təmin edilməsi məqsədilə keçən aylar ərzində COP29 komandası tərəfindən müxtəlif danışıqlar qrupları ilə çoxsaylı məhsuldar görüşlərin və məsləhətləşmələrin keçirildiyini, onların mövqeyinin və COP29-dan gözləntilərinin öyrənildiyini, Azərbaycanın müzakirə olunan mövzular ətrafında qlobal həmrəyliyin və konsensusun formalaşdırılması istiqamətində çalışdığını vurğulayıb.

Bu gün öz işinə başlayan Bonn İqlim Dəyişmələri Konfransına toxunan Təşkilat Komitəsinin sədri bildirib ki, artıq ölkəmiz COP29 sədrliyinin fəal fazasına daxil olur və dövlət qurumları COP29-un uğurla keçirilməsi üçün səylərini daha da artırmalıdır.

Vətəndaş cəmiyyətinin də proseslərə töhfə verdiyini qeyd edən Samir Nuriyev bu xüsusda, Afrikanın 130-dək QHT-si və İtaliyada G7 Vətəndaş Cəmiyyəti Sammitində iştirak edən bir sıra QHT-lər tərəfindən COP29-un ev sahibi kimi Azərbaycana dəstək bəyanatlarının verilməsini xüsusi olaraq qeyd edib.

Ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən edilmiş prezidenti Muxtar Babayev COP29-a hazırlıqla bağlı ümumi gedişat və Bonn İqlim Dəyişmələri Konfransı barədə məlumat verib. Bildirib ki, konfrans çərçivəsində Azərbaycan tərəfindən COP29 sədrliyinin baxışı və təşəbbüsləri ilə bağlı bir sıra tədbirlərin keçirilməsi nəzərdə tutulur.

Xarici işlər naziri Ceyhun Bayramov müxtəlif ölkələr və danışıqlar qrupları ilə keçirilən görüş və məsləhətləşmələr, COP29 Sədrliyinin Fəaliyyət Gündəliyi, COP29-da qəbul edilməsi nəzərdə tutulan sənədlərlə bağlı son vəziyyət barədə danışıb. Dövlət Neft Şirkətinin prezidenti Rövşən Nəcəf SOCAR-ın yaşıl gündəliyi və fəaliyyət istiqamətlərində emissiyaların azaldılması barədə çıxış edib.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova iqlim fəaliyyətində qadınların rolu barədə danışıb.

Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov COP29 zamanı gömrük məsələlərinin tənzimlənməsi, nümayəndə heyətlərinə və onlara məxsus yüklərə münasibətdə sürətli gömrük rəsmiləşdirilməsi prosedurlarının tətbiq edilməsi barədə çıxış edib.

Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev mehmanxanalar və digər yerləşmə yerləri, bu yaxınlarda istifadəyə verilmiş vahid onlayn rezervasiya platforması barədə məlumat verib. Milli Məclisin deputatı Könül Nurullayeva COP29-la bağlı parlament istiqamətində aparılan işlər, xüsusilə Parlamentlərarası İttifaqla əməkdaşlıq çərçivəsində keçiriləcək Parlament konfransı barədə danışıb.

“Qadın, İnkişaf, Gələcək” İctimai Birliyinin sədri Gülşən Axundova qeyri-hökumət təşkilatlarının COP29-a töhfəsi barədə çıxış edib. İclasın sonunda COP29 Tədbirlər Planının icrası istiqamətində görülən işlərin davam etdirilməsi və digər aidiyyəti məsələlər üzrə tapşırıqlar verilib.

“Ölkəmiz iqlim dəyişmələri ilə qlobal mübarizədə liderlik nümayiş etdirir”

**COP29 ilə əlaqədar Təşkilat Komitəsinin dördüncü iclası keçirilib**




İyunun 3-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ilə əlaqədar Təşkilat Komitəsinin dördüncü iclası keçirilib. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri, Təşkilat Komitəsinin sədri Samir Nuriyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıqlarına uyğun olaraq sonuncu iclasdan keçən müddətdə COP29 üzrə Tədbirlər Planının icrası istiqamətində görülmüş işlər barədə məlumat verib.

Təşkilat Komitəsinin sədri bildirib ki, hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz iqlim dəyişmələri ilə qlobal mübarizədə nümunəvi liderlik nümayiş etdirir. Samir Nuriyev vurğulayıb ki, Prezident İlham Əliyevin müxtəlif çıxış və müsahibələrində açıqladığı vacib istiqamətlər, səsləndirdiyi tezislər Azərbaycanın COP29 üzrə fəaliyyətinin əsasını təşkil edir və dövlət başçısının inkişaf etməkdə olan kiçik ada dövlətlərinin iqlim dəyişmələri kontekstində üzləşdikləri problemlərin həllinin ölkəmizin prioritetlərindən biri olaraq bəyan etməsi beynəlxalq ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılanıb.

Samir Nuriyev şəffaflığın və inklüzivliyin təmin edilməsi məqsədilə keçən aylar ərzində COP29 komandası tərəfindən müxtəlif danışıqlar qrupları ilə çoxsaylı məhsuldar görüşlərin və məsləhətləşmələrin keçirildiyini, onların mövqeyinin və COP29-dan gözləntilərinin öyrənildiyini, Azərbaycanın müzakirə olunan mövzular ətrafında qlobal həmrəyliyin və konsensusun formalaşdırılması istiqamətində çalışdığını vurğulayıb.

Bu gün öz işinə başlayan Bonn İqlim Dəyişmələri Konfransına toxunan Təşkilat Komitəsinin sədri bildirib ki, artıq ölkəmiz COP29 sədrliyinin fəal fazasına daxil olur və dövlət qurumları COP29-un uğurla keçirilməsi üçün səylərini daha da artırmalıdır.

Vətəndaş cəmiyyətinin də proseslərə töhfə verdiyini qeyd edən Samir Nuriyev bu xüsusda, Afrikanın 130-dək QHT-si və İtaliyada G7 Vətəndaş Cəmiyyəti Sammitində iştirak edən bir sıra QHT-lər tərəfindən COP29-un ev sahibi kimi Azərbaycana dəstək bəyanatlarının verilməsini xüsusi olaraq qeyd edib.

Ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən edilmiş prezidenti Muxtar Babayev COP29-a hazırlıqla bağlı ümumi gedişat və Bonn İqlim Dəyişmələri Konfransı barədə məlumat verib. Bildirib ki, konfrans çərçivəsində Azərbaycan tərəfindən COP29 sədrliyinin baxışı və təşəbbüsləri ilə bağlı bir sıra tədbirlərin keçirilməsi nəzərdə tutulur.

Xarici işlər naziri Ceyhun Bayramov müxtəlif ölkələr və danışıqlar qrupları ilə keçirilən görüş və məsləhətləşmələr, COP29 Sədrliyinin Fəaliyyət Gündəliyi, COP29-da qəbul edilməsi nəzərdə tutulan sənədlərlə bağlı son vəziyyət barədə danışıb. Dövlət Neft Şirkətinin prezidenti Rövşən Nəcəf SOCAR-ın yaşıl gündəliyi və fəaliyyət istiqamətlərində emissiyaların azaldılması barədə çıxış edib.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova iqlim fəaliyyətində qadınların rolu barədə danışıb.

Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov COP29 zamanı gömrük məsələlərinin tənzimlənməsi, nümayəndə heyətlərinə və onlara məxsus yüklərə münasibətdə sürətli gömrük rəsmiləşdirilməsi prosedurlarının tətbiq edilməsi barədə çıxış edib.

Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev mehmanxanalar və digər yerləşmə yerləri, bu yaxınlarda istifadəyə verilmiş vahid onlayn rezervasiya platforması barədə məlumat verib. Milli Məclisin deputatı Könül Nurullayeva COP29-la bağlı parlament istiqamətində aparılan işlər, xüsusilə Parlamentlərarası İttifaqla əməkdaşlıq çərçivəsində keçiriləcək Parlament konfransı barədə danışıb.

“Qadın, İnkişaf, Gələcək” İctimai Birliyinin sədri Gülşən Axundova qeyri-hökumət təşkilatlarının COP29-a töhfəsi barədə çıxış edib. İclasın sonunda COP29 Tədbirlər Planının icrası istiqamətində görülən işlərin davam etdirilməsi və digər aidiyyəti məsələlər üzrə tapşırıqlar verilib.

# Hulusi Kılıç: “Azərbaycanın COP29-a sədrliyini qaralamaq cəhdləri uğursuzluğa məhkumdur”

ABŞ və Avropada anti-Azərbaycan qüvvələrinin lobbiçilik etdiyi xaricdəki müəyyən dairələrin BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ərəfəsində Bakının imicini qaralamaq cəhdləri uğursuzluğa məhkumdur.

Bu fikri AZƏRTAC-ın müxbiri ilə söhbətində Türkiyənin Azərbaycandakı sabiq səfiri, İMZA ictimai birliyinin nümayəndəsi Hulusi Kılıç ifadə edib.

Sabiq səfir ABŞ Prezidentinin Administrasiyasına və dövlət katibinə qərəzli məktubla müraciət edən amerikalı konqresmenlərin bir qrupunun qeyri-adekvat mövqeyini qətiyyətlə pisləyib. O deyib: “Heç vaxt Azərbaycanda olmamış və hətta respublikanın xəritədə yerini göstərə bilməyən şəxslər bəzən Bakının ünvanına absurd iddialarla çıxış edirlər”.

Kılıçın sözlərinə görə, Azərbaycanda COP29-un keçirilməsi məsələsində dezinformasiyanın arxasında duranlar Bakı ilə İrəvan arasında uzunmüddətli sülh perspektivinə və ümumilikdə, regionda sabitliyə qarşı çıxan dairələrdir. Erməni tərəfinin də bundan əvvəl Bakıda BMT-nin bu tədbirinin keçirilməsini dəstəklədiyini xatırladan diplomat vurğulayıb: “Qərbdə müəyyən dairələr Bakı ilə İrəvan arasında dialoqda əldə olunan irəliləyişdən narahatdır. Ümidvaram ki, Azərbaycan ilə Ermənistan arasında sülh sazişi COP29-un keçirilməsinə qədər imzalanacaq və ya bu irimiqyaslı tədbir çərçivəsində baş tutacaq”.

Hulusi Kılıç Bakının Qərbdəki




rəqiblərinə boş yerə vaxt sərf etməməyi və Azərbaycanın işlərinə mənasız müdaxilələrdən çəkinməyi tövsiyə edib. O, xaricdəki anti-Azərbaycan dairələrinin planları ilə bağlı məşhur bir atalar sözünü xatırladıb: “İt hürər, karvan keçər”.

Diplomat qeyd edib: “Əminəm ki, BMT-nin Azərbaycanda tədbiri uğurla və ən yüksək səviyyədə keçəcək, planetimizdə iqlim dəyişiklikləri ilə mübarizəyə mühüm töhfə olacaq. Bakının hər bir qonağı, tədbir iştirakçıları qonaqpərvərliklə qarşılanacaq, özləri üçün Azərbaycan xalqının mədəniyyətinin yeni cəhətlərini kəşf edəcəklər”.

Sabiq səfir Azərbaycanın problemlər və çağırışlar ilə mübarizəsində Türkiyənin qardaş ölkəyə hərtərəfli dəstək göstərməklə bağlı qətiyyətini də vurğulayıb.

# Avropa yenə də KORRUPSiYA MƏNGƏNƏSiNDƏ



*Yenə də Avropanın korrupsiya məsələsində adı hallanmağa başlayıb. Dəfələrlə avropalıların korrupsiya məsələlərinə, çirkabına bulaşması barədə məlumatlarla qarşılaşmışıq və bu dəfə də Avropa Parlamentində yeni korrupsiya qalmaqalı haqda informasiyalar var. Bu dəfə söhbət artıq Brüssel və Strasburqda Avropa Parlamentinin işinə olan "müdaxilə" məsələsindən gedir və araşdırılan da məhz budur.*

### Avropa siyasətçiləri korrupsiyaya alışqandırlar və haqq, ədalət kimi ən ali dəyərlər ayaqlar altına atılmaqdadır

"Amerikanın səsi" Avropada korrupsiya qalmaqalı ilə bağlı kifayət qədər ciddi məlumatlar yayıb. Məlumata görə, hal-hazırda bütün diqqət Avropa siyasətinin ifrat sağ cinahının nümayəndələri, Almaniya və Hollandiyadan olan Avropa Parlamentinin deputatlarına yönəlib. İstintaqda iştirak edən şəxslərdən biri də ifrat sağçı Almaniya üçün Alternativ partiyasından olan Maksimilian Kranın keçmiş köməkçisi Guillaume Praduradır. Məlumatda həmçinin, Hollandiyalı deputat Marsel de Qraaf və Almaniya üçün Alternativ partiyasının keçmiş deputatı Maksimilian Kranın Kremlin təbliğatına yardım etməkdə ittiham olunduğu bildirilir. Belçika prokurorları bildiriblər ki, Fransa hakimiyyətinin köməyi ilə Pradourun Şerbekdəki evində, eləcə də Brüssel və Strasburqdakı Avropa İttifaqı parlament binalarında və ofislərində axtarışlar aparılır. Hüquq-mühafizə orqanlarının bəyanatında qeyd edilir ki, "axtarışlar müdaxilə, passiv korrupsiya və cinayət təşkilatına üzvlük işinin bir hissəsidir".

Belə görünür ki, Avropa Parlamentinin korrupsiya qalmaqalı məsələsi yenə də öz təsdiqini tapmaqdadır. Əgər axtarış aparılırsa, bununla bağlı məlumar da verilirsə, deməli, ortada hansısa faktlar var. Əks halda, bu barədə iddia belə səsləndirmək olmazdı. Faktların olması isə artıq korrupsiya qalmaqalının yenə də doğru olduğu qənaətinə gəlməyə əsas verir. Belə çıxır ki, Avropa siyasətçiləri artıq korrupsiyaya alışqan olublar və bu vaxta qədər dünyaya ali dəyərlərdən dəm vuran avropalılar artıq aldıqlarının müqabilində haqq, ədalət kimi ən ali dəyərləri ayaqlar altına atmaqdadırlar.

### Belə çıxır ki, Avropada korrupsiya çoxdan adi bir təcrübə kimi artıq qəbul olunmaqdadır

Fransanın Milli Mitinq partiyasından qovulan Pradura haqqında yaxşıca məlumatlıyıq. Bilirik ki, bir neçə il bundan əvvəl həmin o Pradura antisemit foto dərc etdiyinə görə partiyadan qovulmuşdu və bundan sonra o bu vaxta qədər hollandiyalı ifrat sağçı deputat Marsel de Qraafın yanında çalışır. Çalışır yox, nə ilə isə çirkin işlərlə məşğul olur desək, daha doğru olar. Çünki onun işi və fəaliyyəti barədə ağız dolusu danışmaq mümkün deyil və ancaq bəd əməllərinin siyahısını çıxarmaq mümkündür. Heç şübhəsiz ki, Milli Mitinq partiyasından qovulan Praduranın "ələ alınması" gedib erməni lobbisinin, diasporunun fəaliyyəti ilə əlaqəli olacaq və onun da "fəaliyyəti" məhz Avropanın qərarlarına təsir etməkdən ibarət olub. "Qara siyahı"ya düşməsi də bu baxımdan təsadüfi sayıla bilməz.



Onu da diqqətə çatdıraq ki, rus təbliğatını yaymaq üçün avropalı qanunvericilərdən istifadə etdiyi iddia edilən şəbəkəni Çex kəşfiyyatı bu ilin aprel ayında ifşa etdikdən sonra Belçika prokurorları Rusiyanın Avropa İttifaqı parlamentinə müdaxiləsi ilə bağlı iddiaları araşdırmağa başlayıb. Müstəntiqlərin diqqəti Kremlyönümlü iş adamı Viktor Medvedçuk tərəfindən maliyyələşdirilən Avropanın Səsi internet saytına yönəlib. Xatırladaq ki, daha sonra, məhz bunun ardınca bu sayt Avropa İttifaqı sanksiyaları ilə qadağan edilib.

Hadisələrin gedişindən görünür ki, bu dəfə Avropa Parlamentinin divarları arasında açıq şəkildə ifadə edilmiş siyasi çalarlarla növbəti korrupsiya qalmaqalı Avropa İttifaqına təsir etmək imkanı üçün milyonlarla rüşvətin üzə çıxdığı əvvəlki "Qatargate"dən heç də az səs-küylü olmayacaq. Bilirik ki, bu korrupsiya hekayəsinin əsas oyunçuları spiker müavini Eva Kiley, Avropa Parlamentinin deputatları Mark Tarabella, Andrea Kozzolino, Pier Antonio Panzeri və Nikolo Fiqa-Talamanka idi. Onların hamısı da rüşvət almaqda və Avropa İttifaqı siyasətinə təsir etmək cəhdində ittiham olunublar. İndi də bunun kimi korrupsiya qalmaqalının ortaya çıxması artıq bunun bir ənənəyə, vərdişə, adətə, hətta onlar üçün adi hala çevrildiyini deməyə əsas verir. Beləliklə, bəlli olur ki, Avropa Parlamentinin fəaliyyətində korrupsiya çoxdan adi bir təcrübə kimi artıq qəbul olunmaqdadır və nüfuzlu erməni lobbisi bir zamanlar bu nüfuzlu təşkilatın divarları arasında irəli sürülən saxtakarlıq sxemlərinin sponsoru olduğu da məlum olur.

### Avropada adlı-sanlı siyasətçilər erməni dəyirmanına su tökmək üçün dəfələrlə satın alınıb

Sirr deyil ki, Avropa İttifaqındakı Erməni Dostluq Qrupu xüsusilə "fəallıq" göstərir və ələlxüsus da Avropa İttifaqının qanunverici orqanında ermənipərəst və anti-Azərbaycan qətnamələrini fəal şəkildə təbliğ edir. Onu da bilirik ki, həmin qrupun fəaliyyət göstərməsinin əsas hərəkətverici qüvvəsi mafioz milyarder Kaspar Karampetyanın rəhbərlik etdiyi Avropa Ədalət və Demokratiya Uğrunda Erməni Federasiyasıdır. Qeyd etdiyimiz bu personaj Afrikadakı regional münaqişə zonalarından tədarük edilən şübhəli mənşəli almazların ticarəti ilə sərvət qazanıb və külli miqdarda vəsait sahibi olduğuna görə Avropa Parlamentində korrupsiya sxemlərini həyata keçirməkdə əhəmiyyətli dərəcədə uğur qazana bilib. Karampetyan Belçikada zərgərlik mağazaları şəbəkəsinə sahibdir və almaz biznesindən əldə etdiyi külli miqdarda gəlirin böyük bir hissəsini Qarabağdakı separatçılara, həmçinin ASALA kimi erməni terror qruplaşmalarına dəstək verməyə yönəldib. Uğurla inkişaf edən həmin o almaz biznesi sayəsində Karampetyan, Ermənistanın xarici kəşfiyyat xidməti ilə birgə fəaliyyət göstərən Avropa Ədalət və Demokratiya Uğrunda Erməni Federasiyası belə yaratmağa da nail olub. Karampetyan özü hətta bir dəfə etiraf da edib ki, 2017-ci ildə Brüsseldə cəmi bir şam yeməyi zamanı erməni separatizminə dəstək üçün 3,8 milyon avro toplaya bilib. Geniş maliyyə imkanları sayəsində Karampetyan Ermənistanın Azərbaycan ərazilərini işğal etdiyi dövrdə müntəzəm olaraq Qarabağa səfər edən avropalı siyasətçiləri öz sıralarına cəlb edə də bilib. Bununla bağlı konkret faktlar da var. Məsələn, 2017-ci il 15 mart tarixində Strasburqda ən dəbdə olan "Le Bartholdi Pub" restoranında Karampetyan bir sıra avropalı deputatları masa arxasında toplaya bilib. Tezliklə Andre de Bust de Varnaf, Emanuel de Bok və Pyer Kompaninin simasında bir neçə parlamentari Karampetyanın müşayiəti ilə Qarabağda da peyda olub. Bir sözlə, qaranlıq almaz biznesinin gəlirləri ilə satin alınan avropalı siyasətçilər erməni biznesmenin marioneti kimi çıxış ediblər. Ümumiyyətlə, Avropada adlı sanlı siyasətçilər erməni əsilli tərəfindən dəfələrlə satin alınıb.

### Korrupsiya məngənəsini artıq bütün dünya ictimaiyyəti çox yaxşı görür

Xatırladaq ki, bu ilin, 2024-cü ilin fevralında Avropa Parlamenti iki qətnamə qəbul edib və onların hər biri də məhz Azərbaycana qarşı dərhal sanksiyaların tətbiqinə, eləcə də strateji enerji tərəfdaşlığına dair anlaşma memorandumunun dayandırılmasına çağırış edilməsi ilə yadda qalıb. Hər halda, bunun nə demək olduğunu başa düşmək çətin deyil. Xüsusilə də sadalanan faktlar fonunda məsələnin nə yerdə olduğunu müəyyən etmək heç də çətin deyil. Sanksiya tətbiqi çağırışının da, strateji enerji tərəfdaşlığına dair anlaşma memorandumunun dayandırılması çağırışının da arxasında "nəyin" dayandığı çoxdandır gün kimi aydındır. Korrupsuya qalmaqallarının birinin digərini əvəz etməsi onu göstərir ki, bəzi avropalı siyasətçilər məhz ermənilər tərəfindən satin alınıblar və onlar buyruq qulu kimi davranaraq, Avropanın divarları arasında qəbul olunmalı olan qərarlara süni şəkildə təsir etmək niyyəti güdürlər.

Bir sıra faktlar açıq şəkildə göstərir ki, avropalı deputatların və Avropa Parlamentinin üzvlərinin xeyli hissəsi erməni diasporunun onlara verməyə hazır olduğu pul müqabilində Avropanın maraqlarına qarşı çıxmağa hazırdırlar. Daha doğrusu, onlar artıq həmin qərarlara qarşı çıxırlar da. Görünən odur ki, bir çox "satılmış" avropalı deputatlar aktiv şəkildə korrupsiya hərraclarında özlərini bazarda hiss edir və hətta alver də edirlər. Ona görə də demək olar ki, Avropa Parlamenti korrupsiya və qeyri-qanuni lobbiçilik bataqlığına o qədər qərq olub ki, bütün bunlar bütövlükdə Avropa İttifaqı üçün ciddi imic itgisi deməkdir. Ona görə ciddi imic itgisi deməkdir ki, Avropanın yenə də korrupsiya məngənəsində olduğunu artıq bütün dünya ictimaiyyəti çox yaxşı görür.

**İnam Hacıyev**

TƏHLİL

# Citynet GameSummit festivalının əsas tərəfdaşıdır

**Ölkənin qabaqcıl internet provayderi CityNet Azərbaycanda böyük oyun festivalı olan GameSummit-in əsas tərəfdaşıdır. 1-2 iyun tarixlərində "Baku Crystal Hall"da keçirilən GameSummit Summer 2024 festivalında hər yaş qrupundan olan qonaqların VR və interaktiv zonalarda əylənmək, eyni zamanda qabaqcıl süni intellektə malik əsl robotla söhbət etmək imkanı və müxtəlif hədiyyələr qazanmaq şansı olub.**




Artıq 3-cü dəfədir ölkəmizdə təşkil olunan bu festivalın əsas tərəfdaşı CityNet iştirakçıları "Gələcəyin şəhəri" mövzulu xüsusi stenddə qarşılayıb. CityNet City-də qonaqları beynəlxalq virtual yarışlar, dəyərli hədiyyələr və əyləncə dolu eksklüziv oyun arenası gözləyib. Bundan başqa, CityNet şəhərciyində ilk dəfə olaraq həmyerlilərimizin hazırladığı Azərbaycanın birinci kiberidman oyunu təqdim olunub. CityNet iştirakçılara bu oyunu hamıdan əvvəl test etmək imkanı yaradıb.

Qeyd edək ki, CityNet ölkəmizdə rəqəmsal inkişafı və innovasiyaları təşviq edən layihə və təşəbbüsləri daima dəstəkləyir. CityNet bundan öncə keçirilən GameSummit festivallarındada əsas tərəfdaş kimi çıxış edib. CityNet yüksək sürətli sabit internet, ev telefonu xətti və rəqəmsal TV (120 HD kanal olmaqla, 240-dan çox TV kanal) xidmətləri təqdim edən və daim inkişaf edən internet provayderidir. Qoşulma və ya ətraflı məlumat üçün www.citynet.az saytına keçid edə və ya *1177 ilə əlaqə saxlaya bilərsiniz.






# Sülh müqaviləsi COP29-da imzalana bilərmi?

## *Ermənistan və Azərbaycan qlobal istiləşmədən faydalanmağa hazırlaşır*

***Bakıda BMT-nin iqlim dəyişikliyi üzrə beynəlxalq konfransı COP29 çərçivəsində Ermənistan və Azərbaycan arasında sülh müqaviləsi bağlana bilər. Tərəflər hələ də bir neçə bənd, o cümlədən müqavilədə Almatı bəyannaməsinin qeyd olunması ilə bağlı razılığa gəlməlidirlər.***

Buna baxmayaraq, ekspertlər sənədin təxminən 90 faiz hazır olduğunu istisna etmirlər. Bu ehtimal barədə ilk olaraq Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov danışıb. O, əsirlərin mübadiləsini, qarşılıqlı diplomatik dəstəyi və Ermənistanın bu beynəlxalq tədbirə ev sahibliyi etmək üçün müraciətini geri götürməsini bu istiqamətdə müsbət addımlar adlandırıb. Xatırladaq ki, konfrans noyabrın 11-dən 22-dək Bakıda keçiriləcək.Hələ mayın əvvəlində Ermənistanın baş naziri Nikol Paşinyan noyabrda sülh müqaviləsinin imzalanmasının mümkünlüyündən danışmışdı. E.Əmirbəyovun sözlərinə istinadən Paşinyan hər günün müqavilə bağlamaq üçün "əla fürsət" olduğunu söyləyib. Eyni zamanda, Ermənistan lideri vurğulayıb ki, əvvəllər Praqa və Brüsseldə tərəflər sazişin ümumi prinsiplərini artıq razılaşdırıblar, lakin indi onları kağız üzərində təsbit etmək lazımdır. "İşin tamamlandığını və imzalamaya davam edə biləcəyimizi görəndə, yeri, vaxtı və sairələri daha çox müzakirə edəcəyik" deyib.Amma Paşinyan qeyd edib ki, danışıqlarda ab-hava müsbətə doğru xeyli dəyişsə də, bu, İrəvan və Bakının finiş xəttinə çatması demək deyil. Məlumdur ki, Azərbaycan hakimiyyəti sülh müqaviləsi təklifinin 9-cu nəşrini erməni həmkarlarına göndərib.Bu arada Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Ermənistanı Azərbaycanla sülh müqaviləsi imzalamaq fürsətini əldən verməməyə, üçüncü dövlətlərin və xaricdəki öz diasporunun təsirindən xilas olmağa çağırıb. "Erməni xalqı dərk etməlidir ki, onun gələcəyi region ölkələri, əsrlər boyu birgə yaşadıqları və gələcəkdə də birgə yaşayacaqları qonşularla bağlıdır. Ermənistanın da bu məqsədlərə çatmaq üçün lazım olan hər şeyi etməyə cəsarəti olmalıdır", - Türkiyə lideri vurğulayıb.

Türkiyənin müdafiə naziri Yaşar Gülər də Ankaranın sülh prosesində Azərbaycan və Ermənistanın "səmimi səylərini" dəstəklədiyini bildirib. "Mən Ermənistanın və erməni xalqının gələcəyi üçün lazım olan realist yanaşma nümayiş etdirən baş nazir Nikol Paşinyanın son bəyanatlarını alqışlayıram", - Müdafiə Nazirliyinin rəhbəri bildirib.Türkiyə nümayəndələrinin öz ölkələrində keçirilən EFES-2024 beynəlxalq hərbi təlimləri zamanı açıqlama verməsi diqqət çəkir. Onlarda 49 ölkədən, o cümlədən Azərbaycan, Qazaxıstan, Türkiyə və ABŞ-dan 11 minə yaxın hərbçi iştirak edib. Təşkilatçılar iddia edirlər ki, tədbir təcrübə mübadiləsi və hərbçilərin peşəkarlığının artırılması üçün zəruridir və heç kimə qarşı yönəlməyib.Öz növbəsində Ermənistan müxalifəti sülh müqaviləsinin erkən imzalanması perspektivini mənfi qiymətləndirir. Məsələn, "Vətən naminə Tavuş" müxalifət hərəkatının lideri arxiyepiskop Baqrat Qalstanyan Ermənistan hakimiyyətinin tezislərinin Azərbaycan və Türkiyə rəhbərliyinin dediklərinə tam uyğun olmasından narazıdır. Onun fikrincə, bu, Paşinyanın onların nəzarətində olması anlamına gələ bilər.Qalstanyanın tərəfdaşlarından biri, türkoloq Varujan Qeqamyan iddia edir ki, Ankara və Bakı bilərəkdən İrəvanı sülh müqaviləsi imzalamağa tələsdirirlər. O, iddia edir ki, guya onlar müxalifətin Cənubi Qafqazda hökmranlıq etməkdən imtina edəcək tez qələbəsindən qorxurlar.Bunun alternativini artıq Ermənistanın eks-prezidenti Serj Sarkisyan təklif edib: "Beynəlxalq təcrübə var, beynəlxalq hakimiyyətlər var və Ermənistan bu iki vəziyyətdən əl çəkməsəydi, onda hər şey tamam başqa cür olardı". Beləliklə, o hesab edir ki, İrəvan Avropa İttifaqı və Avropa Şurasını vasitəçi kimi dəvət etməlidir ki, bu da Bakını İrəvanın maraqlarına hörmətlə yanaşmağa məcbur edəcək. Bununla yanaşı, Sarkisyan hazırda vasitəçisiz aparılan danışıqları axmaqlıq adlandırıb.Ekspertlər isə tezliklə sülhün əldə olunması perspektivinə ehtiyatla yanaşırlar. Strateji Araşdırmalar və Təşəbbüslər üzrə Analitik Mərkəzin (ACSIS) rəhbəri Hayk Xalatyan deyib ki, son bir neçə il ərzində biz dəfələrlə Bakının necə şərtlər irəli sürdüyünü, İrəvanın razılaşdığını və sonra yeni tələblərin ortaya çıxdığını görmüşük. "Azərbaycanın indi öz siyasətindən əl çəkməyə qərar verəcəyinə şübhə edirəm. Yeganə istisna Azərbaycan tərəfinin nöqteyi-nəzərindən Cənubi Qafqazda erməni amilini tamamilə neytrallaşdıran sənəd ola bilər", - ekspert hesab edir.Eyni zamanda Xalatyan qeyd edib ki, sülh müqaviləsi Paşinyanın dediyi şərtlərlə imzalansa belə (sərhədin 1976-cı il sovet xəritəsi üzrə çəkilməsi və s.) bu, Ermənistanda siyasi böhranın sona çatmasına gətirib çıxarmayacaq. "Ermənistan cəmiyyətinin əhəmiyyətli bir hissəsi Paşinyanın təslimçilik siyasətinə qarşıdır. Bu insanlar baş nazirin irəli sürdüyü sülh müqaviləsinin şərtləri ilə heç vaxt barışmayacaqlar", - ekspert əmindir.



"Atlas" Siyasi Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu isə hesab edir ki, sülh müqaviləsi layihəsi təxminən 90 faiz hazırdır. Almatı bəyannaməsini orada necə birləşdirəcəyinə qərar vermək qalır. "Azərbaycan Prezidenti İlham Əliyevin mövqeyi ondan ibarətdir ki, bütün məsələləri sülh sazişinə daxil etmək mümkün deyil.Xüsusilə, sərhədlərin müəyyən edilməsi çox əmək tələb edən bir prosesdir. Mümkünsə, sərhədi sovet xəritələri ilə çəkmək olar, digər hallarda isə təkbətək danışıqlar aparmaq lazımdır", - deyə Şahinoğlu bildirib.

"Müqavilə layihəsinin bir neçə maddəsi hələ də tam razılaşdırılmayıb, lakin hər iki tərəf COP29-dan əvvəl razılığa gəlmək istəyir. Bakı da tədbirdə Ermənistan nümayəndələrinin iştirak edəcəyini gözləyir. Hələ ki, konkret tarixlər haqqında danışmaq tezdir. Son iki ildə belə proqnozlar çox olub, amma heç biri özünü doğrultmayıb", - Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev etiraf edib. Buna baxmayaraq, politoloq sülh müqaviləsinin imzalanmasından sonra regionun iqtisadi inkişafında tektonik dəyişikliklər gözləyir.

### Bu arada...

Arxiyepiskop Baqrat Qalstanyanın rəhbərlik etdiyi "Vətən üçün Tavuş" hərəkatı iyunun 3-də Müqəddəs Anna kilsəsindən Yerevanda İstintaq Komitəsinin binasına doğru yürüş edib. Qalstanyan jurnalistlərə bildirib ki, o, İstintaq Komitəsinin rəhbəri Argişti Kyaramyana tələblər təqdim etmək niyyətindədir. O, aksiyalarda vətəndaşlara qarşı zor tətbiq edən polisin məsuliyyətə cəlb olunmasını tələb edəcəklərinə aydınlıq gətirib. Vətəndaşlar özləri ilə güzgülər götürərək, struktur nümayəndələrini "ittiham etməzdən əvvəl güzgüdə özlərinə baxmağa" çağırıblar.İrəvanda İstintaq Komitəsinin binasına isə polis çoxsaylı qüvvə cəlb edib. Etiraz hərəkatının lideri Kyaramyanla görüş tələb edib. "Biz Arqişti Kyaramyan və ya İstintaq Komitəsinin başqa nümayəndəsinin aşağı enib vətəndaşlarla danışmasını tələb edirik", - Qalstanyan İstintaq Komitəsinin binası yaxınlığında keçirilən mitinqdə deyib.

Mayın 4-də Ermənistan Xarici İşlər Nazirliyinin Bakı ilə Tavuş vilayətinin delimitasiyasına başlamaq barədə razılıq əldə etməsindən sonra "Vətən üçün Tavuş" hərəkatı Azərbaycana birtərəfli ərazi güzəştlərinə son qoyulması tələbi ilə Kirants kəndindən İrəvana yürüşə başlayıb. Mayın 9-da İrəvanın Respublika meydanında hərəkatın mitinqi keçirilib, onun lideri baş nazirin istefasını tələb edib, həmçinin kütləvi vətəndaş itaətsizliyi aksiyalarına çağırıb. Mayın 26-da keçirilən mitinqdə hərəkat baş nazir postuna Qalstanyanın namizədliyini irəli sürüb. İyunun 2-də arxiyepiskop fəalları saat 10:00-a qədər İstintaq Komitəsinin binasına toplaşmağa çağırıb.

### Okeanın o tayında isə...

Amerika Ermənilər Komitəsi – ANCA-nın Vaşinqton Hay Dat Komitəsi ABŞ administrasiyasını Ermənistana Qarabağdan köçənermənilər üçün 200 milyon dollar məbləğində yardım göstərməyə, həmçinin Azərbaycan hakimiyyətinə qarşı sanksiyalar tətbiq etməyə çağırıb. ANCA-nın mətbuat katibi Elizabeth Çuljyan bildirib ki, yaxın iki həftə ərzində ABŞ Nümayəndələr Palatası və Senat 2025-ci il üçün xarici yardım qanun layihəsini müzakirə etməyə başlayacaq və ANCA müvafiq qətnamənin təqdim edilməsi üzərində işləyir. "Hay Dat Komitəsinin mövqeyi aydındır - 200 milyon dollar yardım "Artsax xalqı"na ayrılmalıdır, başqa proqramlar üçün deyil. Çoxlu proqramlar var, lakin ABŞ hökuməti "Artsax xalqı"na cüzi məbləğdə yardım göstərmədi, komitə və ABŞ-ın erməni icması bunu qeyri-kafi hesab edir və bunun köməyi ilə vəziyyəti düzəltməyə çalışacaq. Çuljyanın sözlərinə görə, qətnamədə Bakıya qarşı sanksiyaların tətbiqi və ABŞ-ın Azərbaycana hərbi yardımının dayandırılması da nəzərdə tutulub. ANCA nümayəndəsi vurğulayıb ki, "ABŞ hökuməti Bakıya hərbi yardım göstərməklə Artsax xalqının soyqırımında şərikdir".Bundan əlavə, Çuljyanın sözlərinə görə, son həftələrdə Erməni Hüquq Mərkəzi ABŞ Dövlət Departamentinə və ABŞ Maliyyə Nazirliyinə 2020-ci il müharibəsi və 2023-cü ildə Qarabağda keçirilən antiterror tədbirləri zamanı Azərbaycanla bağlı yeddi tələb göndərib. O qeyd edib ki, müraciətlər Azərbaycan rəhbərliyinin 42 nümayəndəsinin törətdiyi cinayətlərlə bağlıdır. "Bunun əsasında biz 42 azərbaycanlı məmura qarşı Amerika qanunlarının və sanksiyalarının tətbiq oluna biləcəyini görəcəyik", - deyən Çuljian əlavə edib.Qeyd edilib ki, komitə ABŞ Konqresində Demokratlar və Respublikaçılarla birlikdə Azərbaycanın bu nümayəndələrinə qarşı yeni qətnamənin qəbulu üçün işləyir. ANCA həmçinin ermənilərin Qarabağa təhlükəsiz qayıtması və Bakıda saxlanılan "erməni əsirlər"in azad edilməsi məsələsini də daim qaldırır. "Prezident Baydenə və ya Dövlət Departamentinə ünvanlanan hər bir qətnamədə, məktubda ermənilərin geri qayıtmaq hüququ məsələsi var, çünki Azərbaycanpərəst qüvvələr bu səhifəni bağlamağa çalışırlar", - Çuljyan bildirib. Çuljyan Ermənistan hakimiyyətinin erməni soyqırımının tanınması məsələsində mövqeyini də şərh edib. Onun sözlərinə görə, İrəvanın soyqırım zamanı həlak olanların siyahılarının tərtib edilməsi ilə bağlı açıqlamaları Türkiyə və Azərbaycanın soyqırımı inkar edən arqumentlərini təkrarlayır.

***V.VƏLİYEV***

# Münaqişə və terrordan zərər çəkən uşaqlar

## 4 İyun - Beynəlxalq Aqressiya Qurbanı olan Uşaqlar Günüdür

*Uşaqlar gülərsə, dünya gülər, uşaqlar sevinərsə, cahan sevinər, fikrində böyük bir həqiqət dayanır. Dünyamıza sülh, əmin-amanlıq gərəkdir ki, məsum uşaqlar gülsün. Aydın səma, parlaq günəş, ağlamayan analar və xoşbəxt uşaqlar məfhumları bir-biri ilə zəncivari şəkildə bağlıdır.*






Dünya müharibənin od-alovunu çox görüb və bundan əziyyət çəkən günahsız uşaqlar ata-anasını, doğulduğu yurdu, hətta həyatlarını belə itiriblər. Dünyanın müharibə adlı fəlakətinin, dəhşətli bəlasının günahsız qurbanları Beynəlxalq Aqressiya Qurbanı olan Uşaqlar Günündə anılır. 4 İyun – Beynəlxalq Aqressiya Qurbanı olan Uşaqlar Günüdür. Bu gün dünya ictimaiyyəti münaqişələr və terrordan zərər çəkən uşaqların gününü qeyd edir. Bütün dövlətlər uşaqların müdafiəsi üçün mühüm təminatlar verən 1925-ci il Cenevrə protokoluna və 1949-cu il Cenevrə konvensiyalarına, insan hüquqlarına hörmət edilməsinə aid digər beynəlxalq hüquq aktlarına müvafiq öhdəliklərini tam yerinə yetirməli, müharibə edən tərəflərin hərbi əməliyyatlar zamanı uşaqlara qarşı törədilən bütün repressiya və qəddarlıq, insanlıqdan kənar davranış formaları cinayətkar hərəkətlər sayılır. 1982-ci il avqustun 19-da BMT-nin Baş Assambleyası özünün Fələstin məsələsi üzrə xüsusi sessiyasında hər il iyunun 4-nü Beynəlxalq Aqressiya Qurbanı olan Uşaqlar Günü kimi qeyd etməyi qərara almışdır. Müharibələrdə yalnız əsgərlərin deyil, uşaqların da həlak olduğunu unutmamaq üçün BMT bu günü təsis etmişdir. Bu günün əsas məqsədi dünyanın fiziki zorakılığa, mənəvi-psixoloji və ruhi təsirə məruz qalan bütün uşaqlarının ağrılarını və əzablarını hiss etmək cəhdidir.

### XOCALI SOYQIRIMINDA 63 UŞAQ HƏLAK OLUB

Azərbaycanda olan uşaqlar da müharibənin ağrı-acısını yaşamış, təcavüz və terrorların qurbanına çevrilmişdilər. Qaçqın, köçkün həyatını yaşamaq məcburiyyətində qalan uşaqlarımızın taleyinə uğursuz uşaqlıq həyatı yazılmışdı. 30 ilə yaxın işğalçı Ermənistan tərəfindən torpaqlarımız zəbt olunmuş və azyaşlıların həyatında qara zolaq olaraq iz salmışdır. Müharibə, Xocalı kimi soyqırımı yaşayan və ya həyatlarını itirən uşaqların xoşbəxt yaşayan uşaqlar kimi tale üzlərinə gülməmişdir. Çadır şəhərcikləri, ah-naləli ömür onların psixoloji sarsıntılar keçirmələrinə səbəb olmuşdur. Bütün dünyada münaqişələr zamanı nə qədər uşağın həlak olması haqqında dəqiq statistika aparan yoxdur. Ekspertlərin qənaətinə görə, mərmi və güllə səsləri uşaqlarda travmalar yaradır. Bu uşaq psixikasına çox ciddi zərbə vurur. İnsan cəsədi, qan və ya bu kimi şeylər nəinki uşaqlarda çox ciddi psixi travma yarada bilər. Uşaqlarda isə davranış pozuntularına, dərin depressiyalara səbəb ola bilər. Böyüyəndə belə uşaqlarda şəxsiyyət pozuntusu, müxtəlif sayılı nevrozlar olur və onlar şəxsiyyətlərini tam istədikləri kimi inkişaf etdirə bilmirlər. Müharibə şəraitində böyüyən uşaq bir çox şeylərdən məhrumdur.

### 358 UŞAQ MİNALARDAN ZƏRƏR ÇƏKİB

Əlbəttə ki, hərbi münaqişələr zonasında yaşayan uşaqlar – gələcəyi olmayan uşaqlardır. Azərbaycanın balaca uşaqları bu terrorların qurbanına çevrilib. Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi, "Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün başladığı dövrdən indiyədək 3400-dən çox vətəndaşımız minalardan zərər çəkmişdir, onlardan 358-ni uşaqlar, 38-ni isə qadınlar təşkil edir." Bu, bəli təkcə minadan əziyyət çəkən uşaqları sayıdır. Ermənistan Silahlı Qüvvələri tərəfindən 44 günlük müharibə dövründə amansız və aqressiv davranışlar özünü daha qabarıq büruzə verdi. Bütün dünya münaqişə zonasından kənarda, Azərbaycanın Naftalan, Ağcabədi, Gəncə və Bərdə şəhər və rayonlarında mülki əhaliyə qarşı ermənilərin terror hücumlarının yaxından şahidi oldu. Bu terror hadisələri nəticəsində 12 uşağın həyatını itirməsi, 50 uşağın isə xəsarət alması işğalçı Ermənistan Silahlı Qüvvələrinin əsl simasını bir daha ortaya qoydu.

44 günlük Vətən müharibəsində biz erməninin vəhşi simasını bir daha görmüş olduq. 30 ilə yaxın bir zamanda beynəlxalq hüququn tələb və təkidlərinə məhəl qoymayan beynəlxalq konvensiyalara zidd topladığı silahlarla 44 günlük müharibədə Gəncə, Tərtər, Mingəçevir kimi yerlərdə mülki əhalinin kompakt yaşadığı ərazilərə raket zərbələri endirməsi Ermənistan hökumətinin təcavüzkar, terrorçu simasından xəbər verirmi? Qocaya, cavana, uşağa qıyan erməni müharibə qanunlarını belə pozaraq çirkin niyyətləri ilə tarixən nəyə xidmət etdiklərini bir daha göstərdi. Ermənistan tərəfindən həyata keçirilən terror aktları və müharibə cinayətlərinə etinasızlıq göstərilmədi. Vicdanla öz vəzifə borclarını yerinə yetirənlər Azərbaycanın təmas xəttindən uzaqda yerləşən şəhərlərini raket atəşə tutmasını, nəticədə çox sayda mülki şəxsin həyatının itirməsinin şahidinə çevrildilər. Gəncədə yaşanılan matəm məgər erməni təcavüzkarlığının üzü deyildimi? Kim idi bunları törədən? İnsanlarda onların əməllərinə qarşı yaranan qəzəb və nifrət yaddaşlardan silinərmi? Bu tarixdir: erməninin terrorçuluq əməllərinin izi və tarixi.

### YAŞAYIRIMLIQ MƏRYƏM ERMƏNİ TERRORUNUN QURBANI OLDU

Gəncədə törədilən terror aktı daş yaddaşımıza həkk olunub. Gecə insanların evlərində yatdığı zaman raket atəşi nəticəsində dağılan yaşayış massivi və raket zərbəsindən məhv olmuş məhəllədə dağılan evlərin qalıqları hər zaman kino lenti kimi göz önündən keçir. Qanlı gecədə sakinlərin həyatını itirməsi, erməni terroristlərinin dinc əhaliyə qarşı törətdikləri cinayətlər sənədlərin dili ilə hər zaman danışacaq. Yatmış insanlara qarşı iyirmi birinci yüzillikdə törədilən terror insanlıq əleyhinə olan cinayətdir. Lənnətlənmiş erməni əməllərinin izi Azərbaycan tarixinin hər səhifəsindən görünür. Bunu silmək, yox etmək qeyri-mümkündür. Erməni silahlı bölmələrinin oktyabrın 17-də gecə saatlarında Gəncə şəhərini raket atəşinə tutması nəticəsində Şahnəzərovlar ailəsinin yaşadığı faciə yaddan çıxarmı? Dağıntılar altından ailənin yalnız bir üzvü - 2017-ci il təvəllüdlü Xədicə Şahnəzərova sağ çıxarıldı. Azyaşlı qızın atası Röyal, anası Züleyxa və yaşyarımlıq bacısı Məryəm isə erməni terrorunun qurbanları oldu. Dünya, insanlıq bu faciəni necə qəbul edə bilər? Azyaşlıya qıyan, onu yetim qoyan, insanları şikəst, kor edən, əlil edən, bir ailənin faciəsini qatili olan erməni. O erməni ki, 2017-ci ilin iyul ayının 4-də Füzuli rayonunun Alxanlı kəndində məskunlaşan mülki əhalinin yaşadığı yaşayış məntəqələrinin və mülki obyektlərin qəsdən 80 və 102 millimetrlik minaatanlardan və dəzgahlı qumbaraatanlardan atəşə tutdu. Bu Ermənistan silahlı qüvvələri tərəfindən törədilən daha bir çirkin siyasətin nümunəsi oldu. Nəticədə, 1967-ci il təvəllüdlü yaşlı qadın Allahverdiyeva Sahibə və onun 2 yaşlı qız nəvəsi Quliyeva Zəhra həlak oldular, digər mülki şəxs - 1965-ci il təvəllüdlü qadın Quliyeva Səlminaz ağır yaralandı və mülki obyektlər dağıdıldı. Təbii ki, mülki şəxslərin münaqişələrdə hədəfə alınması qəbuledilməzdir. 2 yaşlı azərbaycanlı Zəhra Quliyevanın cəbhə xəttində Ermənistanın işğalçı qüvvələri tərəfindən qətlə yetirilməsi dözülməz idi. Bu, bir daha Ermənistan ordusu tərəfindən Azərbaycan ərazilərində törədilən təcavüz və təxribat faktlarını, onların iyrənc siyasətini ortaya qoymuş oldu. Bu, Ermənistan silahlı qüvvələri tərəfindən törədilən növbəti vandalizm aktıdır. Bu hadisənin təmas xəttinin beş kilometrliyində baş verdiyi, qanlı cinayətin müharibə qaydalarının pozulması ilə törədilən mülki əhalinin qətli aktı olduğu, hədəfə alınan Alxanlı kəndinin təmas xəttindəki hərbi mövqelərdən uzaq məsafədə yerləşməsinin düşmən qüvvələrinin mülki obyekti məqsədyönlü şəkildə seçməsi sübut edildi. Bütün bunlar dünya ictimaiyyətinə çatdırıldı və dünyanın gözü qarşısında ermənilərin təcavüzkar siyasəti bir daha ifşa edildi.

### GƏLƏCƏYİ ƏLİNDƏN ALINMIŞLAR

1994-cü ildə atəşkəs rejiminin elan olunmasına baxmayaraq, ermənilər Vətən müharibəsinə qədər 30-dan artıq azərbaycanlı uşaq erməni terrorunun qurbanı oldu. Onlardan 13-ü həlak olub, 19-u isə yaralanıb. 2 yaşlı Zəhra Quliyeva da erməni vandalizminin qurbanına çevrildi. Bu, nə insanlığa, nə də beynəlxalq təşkilatlar tərəfindən qəbul edilən hüquqi normalara sığır. İnsan hüquqları sahəsində mövcud beynəlxalq sənədlərə məhəl qoymayan Ermənistan müharibə zamanı mülki əhalinin qorunması haqqında 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyasının, BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasının və digər sənədlərin müddəalarını kobud şəkildə pozub.

Ermənilərin tarixən kim olduqları dünyaya sübut edilib. Axı, Azərbaycana gələn səyyahların, böyük yazıçıların, tarixçilərin onlarla bağlı yazdıqları sözləri unutmamışıq. Qəbirləri dağıdan, şumlayan, məsciddə donuz saxlayan vəhşidən nə gözləmək olar? Beynəlxalq tribunalardan onların əməllərinə qarşı hökm oxunmalıdır. Humanizm prinsipinə hörmətsizlik edən, beynəlxalq hüququn normalarını, qanunvericiliyi kobud şəkildə pozan Ermənistan rəhbərliyi bütün hərbi cinayətlərə görə cavab verməlidir. Artıq Azərbaycanın haqlı mövqeyi müdafiə olunur.

Terror qurbanı olan uşaqların işıqlı gələcək həyatları qabaqda idi. Hər birini xoşbəxt gələcək gözləyirdi. Erməni vəhşilərini müdafiə edənlər acı həqiqətlər qarşısında məsuliyyət daşıyırlar.

**Nəzakət ƏLƏDDİNQIZI**

# Dənizaşırı ölkələrdən Bakıya "mersi"



*2024-cü ildə sədrlik Uqandaya keçdiyi üçün "dekolonizasiya" vəzifələri ötən ilki konfransda xüsusi olaraq yaradılmış Bakı Təşəbbüs Qrupuna həvalə edilib və onun icraçı direktoru Abbas Abbasov artıq onun fəaliyyətini dünyanın bütün regionlarında genişləndirəcəyini vəd edib. Əsas məqsədlər arasında həm keçmiş tərəfdaşı və müttəfiqi ilə getdikcə daha çox düşmənçilik edən Afrikada, həm də Korsika da daxil olmaqla Fransanın özünün ərazilərində "Fransız müstəmləkəçiliyinə qarşı" mübarizə var.*

Parisdə onlar hesab edirlər ki, BIG-in fəaliyyəti Fransanın təhlükəsizliyini təhdid edir və Bakı ilə münasibətlərin pisləşməsini Fransa tərəfinin Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı mövqeyi ilə izah edir. Fransanın Ermənistanı dəstəkləməsi dəfələrlə Azərbaycan prezidenti İlham Əliyevin prezident Emmanuel Makron və onun hökumətinə qarşı son dərəcə sərt bəyanatlarına səbəb olub.

Fransalı nazirlərin fikrincə, Azərbaycanın "fransız separatçıları" ilə məqsədyönlü işi beynəlxalq hüquqi fəaliyyət çərçivəsindən kənara çıxır və başqa ölkənin "daxili işlərinə müdaxilə" ilə sərhədlənir. Paris hesab edir ki, Yeni Kaledoniyadakı iğtişaşlara Bakı birbaşa dəstək verib, çünki Azərbaycan parlamenti müstəqillik tərəfdarlarından ibarət nümayəndə heyətlərini qəbul edib və onlara "Fransız neokolonializmi" ilə mübarizədə tam dəstək verdiyini bildirib və etirazlar zamanı "arxipelaqda asayişi bərpa etməyə çalışan" fransız polislərinin qəddarlığını ittiham edən bəyanatlar yayıb. Lakin dəstək əsasən şifahi olub. Fransanın daxili işlər naziri Cerald Darmanin Bakını "müdaxilə cəhdləri"ndə ittiham edərək, arxipelaqın radikal Kanak partiyalarına hərbi, hətta maliyyə yardımı ilə bağlı heç bir nümunə göstərməyib.



## Yeni Kaledoniya milli azadlıq müharibəsinin astanasına necə gəldi

Bakıda keçirilən hazırkı konfransla bağlı rəsmi məlumatda bildirilir ki, konfrans "Azərbaycan və Fransız Polineziyası arasında parlamentlərarası, iqtisadi və humanitar əməkdaşlığın qurulması imkanlarına, o cümlədən elm, təhsil, idman, səhiyyə və digər sahələrdə əməkdaşlıq imkanlarına" həsr olunub. Bu, Fransanı sakitləşdirmir, o hesab edir ki, federal hakimiyyət orqanlarının rəhbərləri üzərində dövlətlərarası əlaqə onların məqsədi xarici təsirləri yaymaq və cəmiyyətdə sabitliyi pozmaq deyilsə, həyata keçirilə bilməz.

Lakin Parisdəki azərbaycanlı diplomatlar hadisələrin bu cür yozulmasını qəti şəkildə rədd edir, əsas gətirirlər ki, söhbət hökumətdən yox, parlament iclaslarından gedir. "Le Figaro" qəzetinin fransız jurnalistlərinin sorğusuna cavab olaraq onlar xatırladıblar ki, Qarabağın separatçı nümayəndələri Fransa Senatında qəbul olunanda niyə Azərbaycanın "daxili işlərinə heç bir müdaxilə görmədi". Ona görə də saxta ittihamlara son qoymağın vaxtı çatıb", - Azərbaycan təmsilçiləri təkid edirlər.

Bu günlərdə Taitidə başlayan Fransız Polineziyası silahlı qüvvələrinin "Mapara 2024" ("Taiti dilində uçan balıq") təlimləri Fransanın unikal cavabı kimi görünür. Təlimin məqsədi təkcə "təbii fəlakətlərə cavab vermək" deyil, həm də yerli ordu və donanmanın döyüş hazırlığını nümayiş etdirməkdir.

Fransa prezidenti Emmanuel Makron mayın 23-də Yeni Kaledoniyaya planlaşdırılmamış səfər edib. Artıq ikinci həftədir ki, arxipelaq yerli Kanaks və ağ Kaldoş köçkünləri arasında vətəndaş müharibəsi astanasındadır. Xəbər verilir ki, prezident sülh tələb edib, lakin kanaklar çətin ki, ona qulaq assınlar. Emmanuel Makronun səfəri əvvəlcədən planlaşdırılmayıb. Fransa prezidenti improvizə etməyi sevir, hökumətinin çıxılmaz vəziyyətdə olduğu situasiyalarda səhnəyə çıxır. Parisdən Numeaya 24 saatlıq uçuş olduğu üçün burada heç bir sürpriz olmayıb. Prezidentlə yanaşı, tabeliyində olan işçiləri adalarda asayişi bərpa etməyə və barrikada ilə bağlanmış yolları açmağa çalışan daxili işlər naziri Gerald Darmanin, habelə üç ay əvvəl vəzifəsinin icrasına başlayan Xarici Ərazilər Naziri Mari Guyvenu vəziyyətlə məşğul olmağa çalışır.



İğtişaşların səbəbi Fransa ilə əvvəlki müqavilələrlə məhdudlaşdırılan Yeni Kaledoniyanın bütün sakinlərinə bərabər hüquqlar təmin edən konstitusiya islahatıdır. Onların fikrincə, yerli seçkilərdə səsvermə hüququ əsasən adalarda həyata nəzarət edən yerli əhalinin nümayəndələrinə verilib. Ağ köçkünlər Yeni Kaledoniyada ikinci dərəcəli vətəndaşlar olaraq qalıblar, daim Kanakların "ağlara qarşı" irqçilikdən şikayətləniblər. Fransanın bir hissəsi kimi arxipelaqın qorunub saxlanması üçün referendumda üç dəfə səs verən yerli əhali ədalətsiz qanunlara yenidən baxılması ilə mahiyyətcə razılaşıb, lakin həmin qanuna dəyişikliklərin edilməsi cəhdi zorakılığın başlanmasına səbəb olub.

Vəziyyət dalana dirənib. Müstəqillik tərəfdarı olan radikal Kanaks adadakı güclərinin güzəştə getməsini istəmir. Bərabər səs hüquqlu azlıq olaraq qalaraq, bütün imtiyazlarını itirəcəklər. Fransa parlamentində islahat üçün səsverməyə keçən gecə Kanak Sosialist Milli Azadlıq Cəbhəsinin (FLNKS) radikal hissəsi yolları bağlamağa, şəhərləri yandırmağa və talan etməyə başlayıb. Polis bəzən öz ərazilərini belə qoruya bilmədiyi üçün ağ əhaliyə silah paylayıb və özünümüdafiə dəstələri yaratmağa icazə verib. Adaların iqtisadiyyatı və infrastrukturu böyük maddi ziyana uğrayıb.

Hava limanında Makron FLNKS rəhbərlərindən fövqəladə vəziyyətin aradan qaldırılmasına söz verərək "yaxın saatlarda" yolların açılmasını tələb edib. Polis və jandarm qüvvələrinə şəhər və kəndlər arasında əlaqəni bərpa etmək üçün aktiv fəaliyyət göstərmək tapşırılıb. Asayişin qorunmasına 3 minə yaxın polis və jandarm cəlb edilib, polisin zirehli avtomobilləri və helikopterləri Yeni Kaledoniyaya yerləşdirilib.

Prezident təxminən 15 saat ərzində Yeni Kaledoniyada bağlı qapılar arxasında adalarda nizamın asılı olduğu müxtəlif siyasi qüvvələrin nümayəndələri ilə davamlı danışıqlar aparıb. Bununla belə, o, müstəqilliyin və Kanak hökmranlığının qızğın tərəfdarlarını və Fransa ərazisində bərabərliyin və Fransa qanunlarına riayət edilməsinin zəruriliyinə əmin olan ağ "loyalistləri" heç vaxt bir masa arxasında əyləşdirə bilməyib. Prezident geriyə - Parisə uçmalı olub.

Bununla belə, prezident Makronun tapşırığı, çoxlarının hesab etdiyi kimi, strateji deyil, sırf taktiki xarakter daşıyır. O, açıq zorakılığı dayandırmağa və Kanak müqavimətini "sarı jiletlilər", əmək və pensiya islahatları zamanı artıq işlədiyi üçün etirazların alovlanması ilə kəsilsə də, çoxsaylı gecikmələrdə daha da boğmağa ümid edir. Prezident heç olmasa seçki qanununu "zorla" qəbul etməyəcəyinə və qlobal siyasi razılaşma olacağı təqdirdə yerli kaledoniyalıların səsinə qulaq asacağına söz verib.

Çox güman ki, qanuna baxılması yubanacaq, amma onun tamamilə ləğv olunması ehtimalı azdır. Eynilə, Emmanuel Makron da üç referendumun birmənalı cavab verdiyinə inanaraq, arxipelaqın müstəqilliyi məsələsinə qayıtmaq niyyətində deyil. Bu məsələdə onun mövqeyi həmişə Yeni Kaledoniyanın fransız olaraq qalmasına inanan və inanmaqda davam edən, lakin prinsipcə, referenduma qayıtmağa hazır olan Marin Le Pendən daha sərtdir.

Prezident Makron başqa bir referendum əvəzinə, arxipelaqın əyalətləri, eləcə də Kanaks və Caldochs arasındakı bərabərsizlikləri yumşaltmalı, hipotetik "Kaledoniya vətəndaşlığı"nın parametrlərini müəyyənləşdirməli və xalqın taleyini həll etməli olan yeni müqavilə istəyir. Emmanuel Makron ümid edir ki, onun adaya səfəri yerli xalqlar tərəfindən anlaşıqla qarşılanacaq və dəyişikliyə yox deməyəcəklər. Amma insanlar müstəmləkə olmaqdan bezib, hətta azadlıq üçün ölməyə də hazırdırlar.

**V.VƏLİYEV**



## Prezident Administrasiyasının rəhbəri Beynəlxalq Enerji Agentliyinin icraçı direktoru ilə görüşüb

İyunun 3-də Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri, COP29 üzrə Təşkilat Komitəsinin sədri Samir Nuriyev Beynəlxalq Enerji Agentliyinin icraçı direktoru Fatih Birol ilə görüşüb. Görüşdə Samir Nuriyev qarşı tərəfə ölkəmizin COP29-a hazırlıq prosesi ilə bağlı ətraflı məlumat verib.

Fatih Birol Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən qəbul olunduğunu və görüşdə COP29 ilə bağlı səmərəli müzakirələr aparıldığını məmnuniyyətlə vurğulayaraq, rəhbərlik etdiyi təşkilatın COP29-un uğurla keçirilməsinə töhfə verməyə hazır olduğunu bildirib.

ANALİTİK




# Qafqazdan başlayan erməni terroru bütün dünyanı əhatə edir

## Dünya ölkələri ermənilərin Qafqaza köçürülməsinin səhv siyasət olduğunu etiraf edirlər



***Bəşəriyyət yarananda bu günə qədər xalqlar arasında ermənilər qədər vəhşi, qəddar toplum olmayıb. Təəssüflər olsun bu vəhşi toplum Azərbaycanın tarixi torpaqlarını köçürdü, nəticədə iki əsrdir ki, xalq olaraq erməni vəhşiliyindən əziyyət çəkirik. İki əsr ərzində ermənilərin soyqırımı siyasəti nəticəsində 2 milyondan çox azərbaycanlı öz həyatını itirib, minlərlə yaşayış məskəni, evlər, tarixi abidələr, memarlıq nümunələri dağıdılıb.***

Bu baxımdan dünyanın nüfuzlu şair və yazıçıları, ziyalıları erməniləri ən qorxulu terrorçu toplum hesab edirlər. Artıq elmi cəhətdən sübuta yetirilib ki, erməni toplumunun hər biri potensial terrorçudur və ya terror etməyə meyillidir. O da faktlarla təsdiq olunub ki, bəzən ermənilər əyinlərinə keşiş paltarı geyinib, iri şəhərlərdə terror aktları törədiblər, yüzlərlə insanın ölümünü həyata keçiriblər. Hələ 17-ci və 18-ci əsrlərdə onların dini mərkəzi olan Eçmiədzin kilsəsinin əsas işi bölgədə pozucu rol oynamaq olub. Erməni katolikosları özlərini humanist mövqeli tərəf kimi göstərərək vaxtaşırı İrəvan xanlığına hücumlar təşkil edib, qarətlər, yanğınlar törədən Kartli Kaxetiya çarlığı ilə İrəvan xanlığı arasında vasitəçilik etməyə çalışıblar.

Məkrli məqsədləri elə hər iki tərəfdə ermənilərin sakit yaşayışını və xarici ölkələrdən köçürülməsini təmin etməkdən ibarət olub. Müəyyən hallarda çarlığa təlimatlar və satqınlıqları hesabına Karte-Kaxetiya çarlığının İrəvan xanlığına hücum etməsinə nail olmuşlar. 1780-ci ildə Karte-Kaxetiya çarlığının İrəvan xanlığına hücum etməsində erməni kilsəsinin xüsusi rolu olmuşdur. Nəticədə, İrəvanın məhv edilməsinin qarşısını almaq üçün xanlığın Karte-Kaxetiyada siyasi asılılıqda olmasına razılıq verməklə yanaşı, hər il çarlığa vergi verməyə vəd verilmişdir. Yalnız Osmanlı imperiyasının yardımından sonra düşmənə çevrilən qonşular İrəvan üzərində iddialarından əl çəkmişlər. Bundan sonra İrəvan xanlığı əvvəlki iqtisadi qüdrətini bərpa edə bilmişdir. İrəvan xanlığında yaranan sakitlik bir qədər sonra İran şahlarının xanlığa olan hücumları ilə pozulmuşdur. 1795-ci ildə Ağa Məhəmməd xan Qacar İrəvan xanlığına hücum edərək Mirmehdi xanın nəvəsi Məhəmməd xanı hakimiyyətdən devirərək onun yerinə Əliqulu xanı İrəvan xanı təyin etmişdir. Amma Əliqulu xanın da hakimiyyəti uzun çəkməmişdir. 1779-cu ildə Ağa Məhəmməd xan Qacarın öldürülməsindən sonra Məhəmməd xan Əliqulu xanı devirərək İrəvanda hakimiyyəti ələ almışdır.

### 1779-cu ildə İrəvan əhalisinin 90 faizini azərbaycanlılar təşkil etmişdir

O dövrün tarixi sənədlərinə əsasən, demək olar ki, İrəvan xanlığında yaşayan əhalinin 90 faizi azərbaycanlılar, 10 faizini isə erməni, gürcü və digər xalqların nümayəndələri təşkil etmişlər. 1897-ci ildə Rusiya imperiyasının Qafqazda, eləcə də, İrəvanda əhalinin siyahıya alınması zamanı əldə olunan məlumatlarda Qarabağda əsasən azərbaycanlıların yaşadıqları təsdiq olunub. Belə ki, siyahıya alınmaya görə xanlıqda 313 min 178 azərbaycanlı 11 min 317 nəfəri ermənilər yaşamışdı. 1817-ci və 1819-cu illərdə İrəvanda olmuş ingilis arxeoloqu və səyyahı Robert Kerr Ports yazırdı ki, İrəvan xanlığının uzunluğu 200 mil, eni isə 100 mildir. Müasir erməni tarixçisi T.Akopyan da İrəvan xanlığının əhalisinin əsasən azərbaycanlılardan ibarət olduğunu və ərazisinin 24 min kvadratmetr olduğunu yazırdı. İrəvan şəhəri inzibati cəhətdən 3 məhəlləyə bölünürdü: şəhər məhəlləsi, Topbaşı məhəlləsi və Dəmirbulaq məhəlləsi. İrəvan xanlığında türkdilli azərbaycanlıların yerli xalq olması sübuta yetirilmiş faktdır.

Bunu Qafqazın ali baş komandanı general Paskeviç rəsmi məlumatlarda da qeyd etmişdir. İrəvan qalasını çox çətinliklə alan general Paskeviç İrəvan xanlığında əhalinin milli tərkibi haqda verdiyi məlumatda burada 10 min azərbaycanlı, 3 min erməni ailəsinin yaşadığını qeyd etmişdir. ABŞ-dan olan professor Castin Makkarti Rusiya işğalına - 1828-ci ilə qədər İrəvan xanlığı əhalisinin 80 faizinin azərbaycanlı olduğunu göstərir. S.Şopen 1828-1832-ci illərə qədər İrəvan xanlığında əhalinin mütləq çoxluğunu müsəlmanların, yəni azərbaycanlıların təşkil etdiyini yazmışdır. Onun hesablamalarına görə, İrəvan əyalətində 16.075 ailə (81.749 nəfər) müsəlman, 4.428 ailə (25.151 nəfər) isə erməni idi. Müsəlman dedikdə S.Şopen azərbaycanlıları və müsəlman kürdləri nəzərdə tutur. 18-ci əsrin ortalarında Azərbaycanın Qərbində yaradılan qüdrətli xanlıqlardan biri də Qarabağ xanlığı olmuşdur. 1748-ci ildə Pənahəli xan Cavanşir tərəfindən yaradılan Qarabağ xanlığı Kürlə Araz çayları arasında yerləşmiş, ətrafı sıldırım keçilməz qayalar, yaşıl meşələrlə əhatə olunmuşdur. Pənahəli xan Qarabağın göz oxşayan səfalı yerini mərkəz seçərək, orada Qarabağın qala qapısı hesab olunan Şuşa şəhərini inşa etdirirdi. Qarabağ xanlığının ərazisində də İrəvan xanlığının ərazisində olduğu kimi Cavanşir, Otuzdilər, Cəbirli, İyirmi dörd, Baharlı, Ziyadoğullar və bu kimi məhəllələrin tikilməsi və onların da idarə etməsini naiblər tərəfindən həyata keçirilməsi bu ərazilərdə türk adət-ənənələrinin və idarəetmə üsulunun dəyişməz olduğunu göstərir. Pənahəli xanda dərin zəka, yüksək idarəetmə qabiliyyətinin olması və hərbi bilikləri mükəmməl şəkildə mənimsənməsi Qarabağın siyasi, hərbi, iqtisadi qüdrətinin artmasına səbəb olmuşdur. O, müdrik siyasət yürüdərək qonşu dövlətlərlə dostluq əlaqələri qurmuşdur. Bununla yanaşı, xan düşmən hücumlarından ehtiyat edərək Qarabağı, xüsusi ilə də paytaxt Şuşa ərazisini qalalarla, istehkam sədlərlə möhkəmləndirmişdir.

Məhz Pənahəli xanın göstərişi əsasında 1748-ci ildə Barat, 1751-ci ildə Şahbulaq, 1750-ci ildə isə Şuşa qalası inşa edilmişdir. Bu dəfə də ermənilər məkrli, satqın, xəyanətkar fəaliyyətlərini davam etdirməklə möhkəmlənməkdə olan Qarabağ xanlığına təhlükələr yaratmağa çalışırdılar. Ermənilərin satqınlığını, xəyanətini bağışlamayan Pənahəli xan onları cəzalandırmaq qərarına gəlir. Sarayda məclis quran Pənahəli xan satqın erməni məliklərini ora dəvət edir. Xan erməni məliklərinin xəyanətini sübut etdikdən sonra onlardan beşini şəxsən özü məhv edir, qalanlarını isə ömürlük həbsdə saxlanılması üçün Ərbədil xanına təhvil verir. Sarayda keçirilən məclisdə erməni məliklərini zərərsizləşdirməsindən sonra ətrafdakı ermənilər də Pənahəli xandan qorxmağa, onun əmrlərinə tabe olmağa başlamışlar. Məhz bundan sonra Pənahəli xan Qarabağın ərazilərini genişləndir. Bunun da nəticəsində Pənahəli xan İrəvan, Gəncə, Naxçıvan və Ərdəbili Qarabağ xanlığına birləşdirə bilmişdir. Təbii ki, Qarabağın ərazisinin genişlənməsi fonunda xanlığın güclənməsi indiki farsmolla rejiminin nəzarət etdiyi ərazilərin ovaxtkı şahı və əshabəsini ciddi narahat etmişdir. Məhz bu narahatçılığı aradan qaldırmaq və xanlığı məhv etmək üçün 1757-ci ildə Məhəmmədhəsən xan Qacar Qarabağa hücum etmişdir.



### "Xatın arxı" kimi adı qeyd olunan ərazidə gedən döyüşlərdə

Tarixdə "Xatın arxı" kimi adı qeyd olunan ərazidə gedən döyüşlərdə Pənahəli xan böyük iştəha və iddialarla xanlığa hücum etmiş Məhəmməd xan Qacarı məğlub etmişdir. Bu döyüşdə Pənahəli xan şəxsi şücaət, yüksək döyüş nümunəsi göstərmişdir. Darmadağın edilən İran qoşununun tör-töküntüləri qaçarkən o dövr üçün çox əhəmiyyətli hesab olunan 150-yə yaxın tüfəngi, 5 ədəd isə topu döyüş meydanında qoyub qaçmışlar. Bu biabırçı məğlubiyyətdən sonra İran şahı Qarabağ xanını açıq döyüşdə məğlub etməyin mümkün olmadığını başa düşdüyündən Pənahəli xanı hiyləgərlik yolu ilə sıradan çıxartmağa cəhd göstərmiş və istəyinə də nail olmuşdur. Belə ki, Məhəmmədhəsən xan Qacardan sonra hakimiyyətə gələn Kərim xan Zənd Urmiyyə qalibiyyətini zəfər günü kimi qeyd etmək üçün "Şiraz qonaqlığına dəvət edir. Bu qonaqlıqda Pənahəli xan girov götürülür. Pənahəli xanın İran şahının hiyləgərliyinin qurbanı olmasından sonra Qarabağda hakimiyyət uğrunda mübarizə başlayır. Bu mübarizə daha çox İbrahimxəlil xan və Mehrəlibəy arasında gedir. Amansız döyüş İbrahim xanın Mehrəli bəyin üzərində qalibiyyəti ilə başa çatır. İbrahimxəlil xanın hakimiyyətdə olduğu 1763-1806-cı illəri Qarabağın inkişaf tərəqqi dövrü hesab etmək olar. O dövrdə Qarabağın hərbi iqtisadi qüdrəti gürcü çarları ilə yanaşı, Rusiyaya ilan zəhəri verən erməni məliklərini də ciddi narahat etmişdir. Ona görə də, bu qüvvələr Qarabağa hücum təşkil etmək üçün birgə iş planı qururlar.

Amma 1787-1795-ci illərdə Rusiya ilə Osmanlı imperiyası arasında müharibənin başlanması birləşmiş qüvvələrin Qarabağa planlaşdırılan hücumlarının qarşısını almışdır. Bununla da Qarabağ xanlığı inkişafını və hərbi qüdrətini artırmaqda davam etdirmişdir. Amma bir həqiqət var ki, məkrli düşmən heç zaman yatmır. Düşmən hər zaman bölgənin aparıcı xanlıqlardan olan ərazini işğal etmək, insanları isə məhv etmək üçün fürsət gəzir. Bax, bu fürsəti əldə edən Rusiya, Gürcüstan və erməni məlikləri 1806-cı ilin iyunda İran şahının Şuşaya hücum etməsindən istifadə edərək Qarabağın ərazilərini işğal etməyə başladılar. Hətta Şuşadakı rus qarnizonunun rəisi mayor Lisamoviç Cıdır düzündə ailəsi ilə yaşayan İbrahimxəlil xanı xaincəsinə qətlə yetirir. Bununla da Qarabağ Rusiya imperiyasının işğal zonasına çevrilir. Sonrakı mərhələdə işğalçılar tədricən başqa ölkələrdən erməniləri bölgəyə köçürməklə mövqelərini möhkəmləndirməyə çalışmışlar. Nəticədə bölgə ağır və məşəqqətli dövrünü yaşamalı olmuşdur. Rusiyanın və xarici ölkələrin bir sıra güc mərkəzlərindən hərbi-siyasi dəstək alan ermənilər Azərbaycanın şəhər və kəndlərinə hücum edərək dinc insanları kütləvi şəkildə qətlə yetirmişlər. Bu qətliam uzun illər davam etsə də, Rusiya və Avropanın ermənipərəst dairələri baş verənlərə susmuşlar. Çünki qanlı cinayətlərin baş verməsinə özləri dəstək olmuşlar. Lakin hazırkı prosesler onu təsdiq edir ki, bəzi dövlətlər, xüsusilə də Rusiya ermənilərə himayədarlıq etməklə onları Qafqaza köçürülməsini təmin etməklə səhvlərə yol verdiklərini anlayırlar. Bunu ara-sıra keçirdikləri konfranslarda, mətbuata verdikləri açılamalarında ifadə edirlər. Lakin səhvlərin etirafı yaxşı hal olsa da, problemin köklü həlli deyil. Yəni ermənizm və erməni terroru Qafqazdan bütün dünyaya yayılmaqdadır.

**İLHAM ƏLİYEV**

# Qız tələb olunur - PAMFLET



Elçin Bayramlı

Ölkəmizdə işsizlik problemi son vaxtlar cinsi kontekstdə həllini tapmaqdadır. Şübhə edənlər paytaxt küçələrində bir-iki saat hərlənsələr, yanıldıqlarını anlaya bilərlər. Bütün küçələrə, binaların divarlarına, qapı-pəncərələrə, avtobusların şüşələrinə və metro vaqonlarına yapışdırılan saysız-hesabsız iş elanlarında vətəndaşlar "yüksək" əməkhaqqı müqabilində işə dəvət olunurlar. Adamın lap ürəyi açılır. Ki, hamıya iş yeri tapılır. Di gəl, bu elanlara bir balaca diqqət edəndə adamı təəccüb götürür. Elanların əsas maraqlı məqamı işçilərin cinsiyyəti ilə bağlıdır. Yəni, işverənlərin əsas şərti budur- "Qız tələb olunur!".

Bu tendensiyanın bir müsbət cəhəti də ondan ibarətdir ki, ölkəmizdə gender probleminin olmadığını təsdiq edən bu elan kağızlarını bürmələyərək bütün dünyanın gözünə soxa bilərik. Çünki son zamanlar bəzi beynəlxalq təşkilatların nümayəndələri orada-burada ağızlarını avara qoyub deyinirlər ki, nə bilim, Azərbaycanda gender problemi var, qadın hüquqları pozulur- filan. Öz aramızdı, bunlar deyəsən Azərbaycanı başqa ölkələrlə səhv salıblar.

Azərbaycanda əhalinin 51 faizini təşkil edən qadınlar elmi-texniki və ağır fiziki iş sahələrində kişilərə uduzsalar da, humanitar sahələrdə və xidmət sektorunda böyük üstünlük təşkil edirlər. Hətta son statistikaya görə dövlət qulluğuna qəbulda qadınların payı 70 faizi keçib. Bəli bizdə gender bərabərsizliyi var, lakin burda cinsi disbalans tam deyildiyinin əksinədir- artıq kişilər gender bərabərsizliyindən əziyyət çəkirlər.

Hələ uzun illər qabaq bu replikanı gender problemi ilə bağlı iştirak etdiyim beynəlxalq seminarların birində amerikan treynerə tərəf tulladım ki, bəlkə bu modern kovboy səhvini anlaya. Elə beləcə də dedim: "Mister Uill, mənə elə gəlir, gender bərabərsizliyinin tərəflərini bir balaca dəyişik salmısınız. Bizdə artıq matriarxal quruluş bərqərar olubdur. (Nə təhər demişəm?!)

Treynerin və seminar iştirakçılarının maraqla dinlədiyini görüb cəsarətləndim və replikanı çıxışa döndərməyə qərar verdim: "Cəmiyyətimizdə qadınların yeri o qədər də pis deyil. Siyasətdə, iqtisadiyyatda, mədəniyyət və incəsənətdə, elm, təhsil və səhiyyədə, o cümlədən digər sahələrdə qadınlar fəal iştirak edir. Məsələn, cəmiyyətimizin ən aparıcı sahələri olan mədəniyyət, təhsil və səhiyyədə, həmçinin xidmət sahələrində qadın kontingenti 80-90% təşkil edir.

Mister Uill, siz heç Bakıda sərnişin nəqliyyatından istifadə etdinizmi? (Treynerin təsdiq mənasında başını yellədiyini görüb, çıxışımı daha cəsarətlə davam etdirdim) Gördünüzmü ki, metro vaqonlarında, avtobuslarda sərnişinlərin 2/3-si qadındır? Bunların çoxu işə və ya təhsil almağa gedənlərdir. Bir çox ailələri qadınlar dolandırır. Elə bu zalın pəncərəsindən şəhərimizdəki son model bahalı avtomobillərin fasiləsiz paradını seyr edə bilərsiniz, sizi inandırıram ki, onların əhəmiyyətli bir hissəsi qadınların halal qazancı ilə alınmışdır.

İctimai tədbirlərdə, konsertlərdə və əyləncə mərkəzlərində də üstünlüyü zərif (etiraf edim ki, burada az qala çaşıb "zəif" deyəcəkdim, son millisaniyədə səhvimi düzəltdim, həqiqəti etiraf etmək son dövrlərdə "zapodlo" sayılır) cinsin nümayəndələri təşkil edirlər. Elə gender bərabərliyinin müzakirə olunduğu bu salonda da qadınlar mütləq üstünlük təşkil edir və bərabərlik onların xeyrinə kobud şəkildə pozulmuşdur. Gördüyünüz kimi, bizdə az qala matriarxal cəmiyyətdir. Bu səbəbdən də, ölkəmizdə qadın hüquqlarının pozulduğunu iddia etməyə heç bir əsas yoxdur".

Təvazökarlıqdan kənar olsa da, qeyd etməliyəm ki, çıxışımı bitirdikdə salonda böyük canlanma oldu. Rusun sözü- "burnıe oplodismentı!". Baxmayaraq ki, auditoriyanın üçdə ikisini qadınlar təşkil edirdi. Amerikalı treyner azərbaycanlı tərcüməçiyə (yeri gəlmişkən, tərcüməçi də qadın idi) şübhəli və təəccüblü nəzərlərlə baxırdı- böyük ehtimalla, mənim sözlərimin ona düzgün çatdırılmadığı qənaətində idi... Öz aramızda qalsın, dövlət himnimizdə qadın səsinin üstünlük təşkil etdiyi haqda ən tutarlı arqumenti mister Uillə demədim. Üstəlik, bizdə belə bir zərb-məsəl var ki, "arvaddan qorxmayan kişi deyil".

Amma bunlar misterə deyiləsi söhbətlər deyil. Nöşün ki, rüsvay olmayaq. Nədən danışırdıq, hara gəlib çıxdıq... Hə, deməli, hamı qız-qadın axtarır, kişiləri heç vecinə alan yoxdur. Mən şəxsən bir neçə işverəndən bu cins məsələsinin elanlarda nəyə görə əsas şərt olaraq qoyulduğunu soruşsam da, düz-əməlli cavab ala bilməmişəm. Bəzi xidmət obyektlərini yenə başa düşmək olar, şorgöz kişi müştəriləri daha maraqlı xidmətlə cəlb etmək istəyirlər. (Amma onu da deyim ki, mağaza və ofislərdə manekenə və ya androidə oxşayan ədəbaz qızlar bir kişi müştəri kimi qətiyyən mənim xoşuma gəlmir. Bu yarımsüni kimyəvi məxluqlar biorobot kimi şeydirlər).

Təbii ki, qız-gəlinlərin bir çox işlərdə çalışması yaxşı haldır, amma elə işlər var ki, orada kişilər qadınlardan daha effektli iş görə bilirlər. Amma sən gəl bunu firma-şirkət sahiblərinə başa sal. Onlara desən ki, bütün dünyada işçiləri cinsinə görə yox, faydalı iş əmsalına- yeni, qabiliyyətinə, biliyinə, bacarığına, təcrübəsinə və nəhayət, müəssisəyə daha çox xeyir verdiyinə görə götürürlər, sənə gülər ki, a bala, sən hələ uşaqsan, belə şeylərdən başın çıxmaz.

Bir çox elanlarda və işə qəbul zamanı aparılan söhbətlərdə təkcə cinsi tələblər yox, həm də digər anormal şərtlər qoyulur. Cavan olmaq, gözəl olmaq və ailəli olmamaq kimi şərtlər bu qəbildəndir. Bütün bu elanları nəzərdən keçirərək tələb olunan kriteriyaları ümumiləşdirməyə cəhd etsək, onda təxminən belə bir nəticə alınar- Şirkətə (adı əksər hallarda qeyd olunmur-müəllif) ali və ya orta təhsilli, 17-30 yaşlı qızlar tələb olunur. Ölçüləri- 90-60-90, saçları sarı, gözləri mavi və ya yaşıl, boyu 160-180 sm, çəkisi 50-60 kq. Subay, ya da boşanmış olsa iş qarantı dəqiqdir. Xaricdə işlə təmin olunması mümkündür. Maraqlananlar filan nömrəyə (adətən, mobil nömrə olur) zəng edə bilərlər. Vəssalam.

Bu tələblərə tam cavab verən qızlar yüksək əməkhaqqı ilə, qismən cavab verənlər isə orta əməkhaqqı ilə iş tapa bilər. Digərləri, hətta "Oksford"un doktoranturasını bitirmiş olsalar belə, narahat etməsinlər. Bir sözlə, bütün bunlardan konkret bir nəticə çıxarmaq olar- bu adamlara işçi, mütəxəssis yox, qız lazımdır. Amma işə götürənlərin bir tələb yadlarından çıxıb ki, bu da sağlamlıq haqqında arayışdır.

Beləliklə, bizim cəmiyyət gender bərabərliyi, qadın azadlığı, müasirlik adı altında mənəvi deqradasiyaya məruz qalır, qadınla kişinin təbii, bioloji, sosial yeri, mövqeyi dəyişir. Kişilərin lazımsız əşya kimi tarixin arxivinə göndərilməsi dövrü başlayıb. Əgər proses bir qədər də belə davam etsə, kişilər tam heyətdə işsiz qalacaq və biz matriarxal quruluşa keçidimizi müvəffəqiyyətlə tamamlaya biləcəyik.



# "Milli-mənəvi dəyərlərimiz bir çox konvensiyalardan önəmlidir"

***Milli Məclisdə deputat Tahir Rzayevin ailəli və övlad sahibi olan qadınların işə bir saat gec gəlməsi, işdən bir saat tez çıxması ilə bağlı Əmək Məcəlləsinə dəyişiklik təklif etməsi cəmiyyətdə birmənalı qarşılanmayıb. Deputatın təklifi müxtəlif müzakirələrə səbəb olub və millət vəkilinin fikirlərini, təklifini dəstəkləyənlər də, düzgün hesab etməyənlər də olub. Bununla bağlı, yəni irəli sürdüyü təkliflə əlaqədar olaraq millət vəkili Tahir Rzayev açıqlama verib və həmin təklifin ayrı-seçkiliyə yol verilməsi kimi deyil, qadına, anaya qayğı, hörmət, ehtiram olaraq irəli sürüldüyünü bildirib.***



KOMİTƏ SƏDRİ

"Ailəli olan, övladı olan qadınların işə bir saat gec gəlməsi və işdən bir saat tez getməsi üçün şərait yaradılması barədə Milli Məclisdə səsləndirdiyim təklif insanlar tərəfindən birmənalı qarşılanmayıb və ciddi müzakirələrə səbəb olub. Mən hər kəsin fikrinə hörmətlə yanaşıram və söylənilənlərin hər birinə də cavab vermək fikrində deyiləm, ancaq bəzi hüquqşünasların, siyasətlə məşğul olanların, gender bərabərliyi tərəfdarlarının bu təklifi məntiqsiz, absurd adlandırmaları, Beynəlxalq Konvesiyaların tələblərinin, gender bərabərliyinin pozulması, ayrı-seçkilik, qadınların rolunun azaldılması kimi qiymətləndirmələri məndə ciddi təəssüf doğurur və həm də çox təəssüf edirəm ki, bu fikirləri söyləyənlərin əksəriyyəti kişilərdir." Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib.

Komitə sədri xüsusilə qeyd edib ki, qadınlara qayğını, eləcə də güzəştlərin, imtiyazların və əlavə təzminatların verilməsini gender bərabərliyinin pozulması, ayrı-seçkiliyə yol verilməsi kimi başa düşənlərə Əmək Məcəlləsinin 16-cı maddəsinin 2-ci bəndinə nəzər salmağı məsləhət görür.

"Qeyd olunan maddədə aydın göstərilir ki, "Qadınlara, əmək münasibətlərində güzəştlərin, imtiyazların və əlavə təminatların müəyyən edilməsi ayrı-seçkilik hesab edilmir". Əmək məcəlləsinin digər 91 və 243-cü maddələrində də qadınlara belə imtiyazlar - iş saatının azaldılması, onların yüngül işə keçirilməsi, övladlarının yedizdirilməsi və istirahəti üçün şərait yaradılması öz əksini tapıbdır. Məgər bunlar gender bərabərliyinin pozulması, yaxud da ayrı-seçkilikdirmi? Xeyr, ayrı-seçkilik deyil, qadına, anaya qayğıdır, hörmətdir, ehtiramdır. Ulu Öndərimiz Heydər Əliyev qadına, anaya qayğını daim yüksək qiymətləndirirdi. Azərbaycan Prezidenti cənab İlham Əliyev ailəni müqəddəs hesab edir, ailə dəyərlərini, milli-mənəvi dəyərləri qorumağı və möhkəmləndirməyi tövsiyə edir və eləcə də Birinci xanım Mehriban Əliyeva qadın hərəkatının önündə gedir, qadınlarımızın hüquqlarının qorunması üçün əlindən gələni əsirgəmir.

Bu, bir həqiqətdir ki, kişilərimiz ən ağır işlərdə, döyüşlərdə, düşmənə müqavimətdə öz sinələrini irəli vermişlər, qadınlarımızı ağır işlərdən, çətinliklərdən qorumuşlar, onların ana kimi, zərif varlıq kimi hər zaman qayğısına qalmışlar. Hazırda dünyanın bir çox ölkələrində qadınların əməyinin yüngülləşdirilməsi barədə məsələlər qaldırılır, təkliflər irəli sürülür. Rusiya dövlət dumasının vitse-spikeri Boris Çernişovun bu günlərdə bir iş gününü iki saat azaltmaq təklifi buna misal ola bilər. Verdiyim təklif iqtisadi, eləcə də maliyyə baxımından dəyərləndirilsəydi, əsaslandırılsaydı bəlkə də bu qədər təəssüf doğurmazdı. Ancaq anaya, qadına qayğının ayrı-seçkilik, bəzi konvensiyaların, qadın hüquqlarının pozulması kimi qiymətləndirilməsi, eləcə də, kişilər nəyə görə qadınlardan çox işləməlidir, fikirlərinin söylənilməsi, təklifimin məntiqsiz, absurd adlandırılması belə bir qənaətə gəlməyimə əsas verir ki, bu insanlar bir azdan deyəcəklər ki, hüquqlarımız bərabər olduğu üçün qadın və qızlarımız hərbi xidmətə çağrılmalıdır, sərhədlərimizi qorumalı, keşik çəkməli, düşmənlə vuruşmalı və bizi mühafizə etməlidirlər.

Anaya, qadına qayğını bərabərliyin pozulması kimi başa düşən və tez-tez Beynəlxalq Konvensiyalara, qətnamələrə, qərarlara istinad edən bir çoxları bilməlidirlər ki, xalqımızın tarixən qorunub saxlanılan milli-mənəvi, əxlaqı dəyərləri bizim üçün ən nümunəvi konvensiya, qətnamə və qərardır. Çünki bu konvensiyalar, qətnamələr 30 ildən çox köçkün və qaçqın həyatı yaşayan, əsir götürülən, şikəst edilən qadınlarımızın, analarımızın hüquqlarını qoruya bilmədi, qorumaq istəmədi, onlara kömək də etmədi. Ona görə də hərhansı təklifə irad tutan hər bir kəs ilk növbədə qanunlara düzgün istinad etməli, milli-mənəvi dəyərlərə arxalanmalı, reallıqları qiymətləndirməyi bacarmalı və həm də digərlərinin təkliflərinə süni don geyindirməməlidir", - deyə Tahir Rzayev bildirib.

***İnam Hacıyev***




# Qlobal dünyada miqrasiya nədir?



***Müasir və qloballaşan dünyada insan kütlələri daim hərəkətdədirlər. İnsanların köçlərinə miqrasiya (latın dilində: migratio - köçmək) və ya köçetmə - (insanların daimi və müvəqqəti yaşayış yerlərini dəyişməsi, yer kürəsinin bir məntəqəsindən digərinə getməsi) deyirik. Miqrasiya mədəniyyətlər, etnik qruplar və dillər arasında uzun müddətdir mövcud olan sədləri qıraraq müxtəlifliyi, mədəni zənginliyi və iqtisadi canlılığı artırır. Bir çox nöqteyi-nəzərdən miqrasiya çətin və hətta təhlükəli hesab olunur.***

"Arxeoloqların fikrincə, Yer kürəsindəki demək olar ki, bütün insanlar miqrantdır, çünki insan irqi 200 min il əvvəl Afrikada ortaya çıxıb və sonralar bütün dünyaya, Avropa, Asiya, Avstraliya və Amerikaya yayılıb. Hazırda dünyada təxminən 200 milyon miqrant var. Bu səbəbdən miqrasiya problemləri və təsirləri siyasətçilər kimi sıravi insanların da qızğın müzakirə mövzusudur.

İnsanların beynəlxalq sərhədləri aşaraq köç etməsi və ya ölkə daxilində hər hansı məqsədlə hərəkəti miqrasiya hesab olunur. "İmmiqrant" terminine hər hansı tərif vermək isə daha çətindir. "İmmiqrant" termini insanın xarici təzyiqlərdən asılı olmayaraq, könüllü olaraq immiqrasiya etməyi seçdiyi istənilən vəziyyətə istinad etmək üçün istifadə olunur. Belə ki, könüllü miqrasiya vəziyyətində, miqrantların ümumi həyat standartları təmin olunsa da, daha çox iş imkanları və daha yaxşı həyat standartları kimi amillərdən təsirlənirlər. Məcburi miqrasiyaya səbəb olan amillərsə fərdlərin zülm, münaqişə və ya zəruri həyat standartlarının olmaması kimi fundamental hüquqlarının pozulduğu vəziyyətlərdən qaçmasıdır. Beynəlxalq hüquqa əsasən, məcburi köçkünlər, qaçqınlar və sığınacaq axtaranların xüsusi mühafizəsi təmin edilməlidir. Belə ki, hər milyonlarla miqrant iqtisadi çətinliklərdən və insan hüquqlarının pozulmasından qaçmaq üçün vətənlərini tərk edir. Onu da qeyd etmək lazımdır ki, iqtisadi hüquqlarının pozulduğu şəraitdən qaçan insanlar da, məcburi köçkün kimi təsnif edilə bilər.

Miqrasiyanın növlərini daha dəqiq şaxələndirmək istəsək, fərdlərin köçdükləri ölkədə qalma müddəti, hüquqi statusu və motivasiyaları da daxil olmaqla, müxtəlif səbəblərə görə bir çox növlər göstərə bilərik. İmmiqrasiyanın kateqoriyaları aşağıdakı kimidir:

Müvəqqəti əməkçi miqrantlar. Qeyri-qanuni (və ya sənədsiz, icazəsiz) miqrantlar: zəruri sənədlər və icazələr olmadan ölkəyə daxil olanlar.

Məcburi köçkün: sığınacaq axtaran şəxslər və ya silahlı münaqişələr və ya ekoloji fəlakətlər kimi xarici amillərə görə köç etmək məcburiyyətində olan insanlar.

Qaçqın "irqi, dini, milli mənsubiyyəti, müəyyən sosial qrupa mənsubiyyəti və ya siyasi baxışlarına görə təqib olunacağı qorxusundan ölkəsinə qayıda bilməyən" şəxsdir.

Ailə üzvləri: artıq köçmüş olan yaxın qohumlarına qoşulanlar. Geri qayıdan miqrantlar: bir müddətdən sonra başqa ölkədən öz ölkələrinə qayıdan insanlar.

Yüksək ixtisaslı və biznes mühacirləri: transmilli korporasiyaların və beynəlxalq təşkilatların daxili əmək bazarlarında hərəkət edən peşəkarlar.

Günümüzdə də miqrasiya ilə bağlı müzakirələr gündəmdə üstünlük təşkil edir. Miqrasiya ilə bağlı digər bir maraqlı məqam ondan ibarətdir ki, köç edənlərin çoxu öz ölkələri daxilində yer dəyişirlər. Belə ki, ölkə daxilində köç edənlərin sayı xaricdəki mühacirlərin sayından dörd dəfə çoxdur. Bundan əlavə, biz bu köçlərin böyük hissəsinin ölkələrin inkişaf səviyyəsi ilə bağlı olduğunu deyə bilərik. Statistika göstərir ki, inkişaf etmiş olan ölkələr təxminən 55%, inkişaf etməkdə olan ölkələr 40%, inkişaf etməmiş ölkələrsə 5%-ə qədər miqrant qəbul edir. Bu səbəbdən hətta dünyanın ən kasıb ölkələri də qaçqın və sığınacaq axtaranlara kömək etmək öhdəliyi daşıyır.

İmmiqrasiya həm kütlənin gəldiyi, həm də köç edəcəyi ölkələrdə faydalarla birlikdə müxtəlif problemlər də yarada bilər. Birincisi, ölkələrdən miqrasiya çox vaxt ixtisaslı işçi qüvvəsinin getməsinə və beyin axınına gətirib çıxara bilər ki, bu da iqtisadi inkişafda itki yaradır. Bu, əmək bazarında çatışmazlıqlara və müəyyən sektorlarda boşluqlara səbəb olmaqla iqtisadi artıma mənfi təsir göstərə bilər. Eyni zamanda köçü qəbul edən ölkənin yerli işçi qüvvəsinin rəqabət qabiliyyətini azala bilər. Digər tərəfdən, immiqrantların inteqrasiya prosesi mədəni müxtəlifliklə bağlı problemlər yarada bilər. Təyinat ölkələrində immiqrasiya sosial xidmətlərə tələbatı da artırır. Belə ki, miqrantlar təhsil, səhiyyə və mənzil kimi ictimai xidmətlərə ehtiyac duyurlar ki, bu da təyinat ölkələrinin rifah səviyyəsinə əlavə təzyiq yarada bilir.

Digər tərəfdən immiqrasiyanın əmək bazarında zənglinliyi artırmaqla iqtisadi artımı stimullaşdırdığı da bilinir. İmmiqrantlar çox vaxt müxtəlif bacarıq və təcrübələrə malikdirlər ki, bu da işçi qüvvəsinə töhfə verə, rəqabət qabiliyyətini artıra və innovasiyaları təşviq edə bilər. Bundan əlavə, sahibkar olan immiqrantlar öz bizneslərini qurmağa meyllidirlər. Bu da yerli əmək bazarını stimullaşdıra və yeni iş imkanları yarada bilər. Sosioloji nöqteyi-nəzərdən miqrasiya mədəni müxtəlifliyi artırmaqla cəmiyyətləri daha açıq və tolerant olmağa təşviq edə bilir. Fərqli mədəni fonlardan olan şəxslərin bir araya gəlməsi cəmiyyətləri daha zəngin və dinamik edə bilər. Digər tərəfdən immiqrantlar çox vaxt gənc və əmək qabiliyyətli olduqlarından, ortalama yaş həddi qoca olan ölkələr, bu vəziyyətlə mübarizə aparmaq üçün qapılarını miqrantlara açırlar.





Nəticədə miqrasiyanın iqtisadi və sosioloji faydaları əmək bazarında müxtəliflik və innovasiyalar, sahibkarlıq fəaliyyətləri və mədəni zənginləşmə kimi nəticələr yarada bilər. Bununla belə, miqrasiyanın faydalarından maksimum dərəcədə yararlanmaq üçün immiqrantların inteqrasiyasını dəstəkləyən effektiv miqrasiya tədbirləri və balanslaşdırılmış miqrasiya siyasəti qəbul etmək vacibdir.

***Zərdüşt Quluzadə***

***Müasir dünyada Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz uğurlu xarici siyasət xəttini davam etdirir, beynəlxalq aləmdəki mövqeyini artıraraq, bu münasibətləri möhkəmlətməyə önəm verir. Dövlət başçısı xarici siyasət məsələlərini daim diqqət mərkəzində saxlayaraq, diplomatiyamız qarşısında duran prioritet vəzifələri müəyyənləşdirərək, onların planlı və ardıcıl surətdə həyata keçirilməsini təmin edir.***

# 4 İyun Gəncə qiyamından ötən 31 il



Məlumdur ki, müstəqilliyinin təməlini möhkəmləndirmiş, dünya ölkələri ilə beynəlxalq münasibətləri genişləndirmiş, Zəfər qazanmış Azərbaycan tarixinin çətin ağır illərində yaşadığı ictimai-siyasi hadisələr onu məhv olmaq təhlükəsi ilə üz-üzə qoymuşdur. Bu uzaq tarixi keçmişimiz deyil, müstəqilliyimizin ilk illərinin tarixi gerçəklikləridir. O illər idi ki, Azərbaycan dilemma qarşısında qalmışdı. Həm xaricdən, həm də daxildən müxtəlif düşmən qüvvələrin təsiri altında parçalanma ərəfəsində qalan Azərbaycanın müdrik rəhbərə, böyük şəxsiyyətə böyük ehtiyacı yaranmışdır. İdarəçilikdə olan səbatsız, təsadüfi insanlar ölkəni acınacaqlı bir vəziyyətə salmışdılar. Vətəndaş müharibəsi təhlükəsi ilə qarşılaşmış ölkəmizi müdrik siyasətçi Ulu Öndər Heydər Əliyev vəziyyətdən çıxardı.

## XALQIN İSTİQLALA BAĞLILIĞI

Əlbəttə ki, bu gün 1993-cü ilin iyununda baş vermiş hadisələri yenidən təəssüf hissi ilə xatırlayırıq. Çünki həmin vaxtlar XX əsrdə ikinci dəfə öz müstəqilliyini qazanmış Azərbaycan məhv olmaq təhlükəsi ilə üzləşmişdi. Mücadilə yolu ilə, tökülən qanlar bahasına yenidən müstəqilliyini bərpa etdi. Müstəqillik asan əldə olunmadı, gərgin ictimai-siyasi vəziyyət və böyük qurbanlar bahasına əldə edildi. 1991-ci il oktyabrın 18-də Ali Sovetin sessiyasında tarixi sənəd qəbul edildi. Tarixi reallıqlar, bir daha göstərdi ki, 71 illik sovet rejimi Azərbaycan xalqının müstəqillik arzularının üstündən xətt çəkə bilməmişdi. XX əsrin 80-ci illərinin sonunda başlanan tarixi-siyasi proseslərdə Azərbaycan xalqının istiqlala bağlılığı, müstəqil dövlətçiliyə malik olmaq arzusu, özünü açıq-aydın büruzə verdi. Azərbaycanın dövlət müstəqilliyi yolunda mücadiləsi, faktiki olaraq, 1988-ci ilin xalq hərəkatı ilə başlansa da, bu istiqamətdə həlledici proseslər 1990-1991-ci illərdə cərəyan etdi. Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı 1991-ci il oktyabrın 18-də qəbul edilsə də, əslində, Azərbaycan özünün əsl müstəqilliyini Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra əldə etdi.

Azərbaycanı gözü götürməyən qüvvələr xalqımızın uğrunda ardıcıl mübarizə apardığı milli azadlığına, dövlət müstəqilliyinə mane olmaq və onun mübarizə əzmini qırmaq üçün ən məkrli siyasi təxribatlara əl atdılar. Ermənistanın Azərbaycan torpaqlarının işğalı, respublikamızı daxildən parçalamaq və xalqımızı vətəndaş müharibəsi girdabına sürükləmək kimi cəhdləri Azərbaycanı olduqca çətin bir vəziyyətlə üz-üzə qoydu. Çünki hakimiyyətdə olan səriştəsiz rəhbərlər mövcud təhlükələrin qarşısının alınması istiqamətində lazımi tədbirləri görmək gücündə deyildilər.

## AXC-MÜSAVAT HAKİMİYYƏTİNİN İFLASI

O vaxt Azərbaycan əhalisi artıq iqtidardakıların hansı qabiliyyətin sahibi olduğunu yaxşı bilirdi. Ona görə də AXC-Müsavat cütlüyü 1993-cü ilin yayında baş verən hadisələr zamanı ictimai dəstəkdən tamamilə məhrum olmuşdu. Elə xalqın dəstəyini itirdiklərinə görə də hakimiyyətdən getməli oldular. İqtidarda olanlar Azərbaycanın parçalanmasına, dağılmasına, torpaqlarımızın düşmən işğalına məruz qalmasına göz yumaraq var-dövlət yığmaqla, ölkəni talamaqla məşğul idilər. Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövlətinin rəhbərliyində olması bütün təhlükələrin qarşısını almağa imkan verdi və qısa zamanda problemlərin aradan qaldırılması istiqamətində intensiv addımlar atılmağa başlandı. Separatçıların cənub bölgəsində qondarma "Talış-Muğan respublikası" yaratması, S.Hüseynovun ali hakimiyyət postunu ələ keçirmək üçün yeni planlar qurması, Azərbaycana xaricdən təzyiqlərin güclənməsi, ölkədə faktiki olaraq vətəndaş müharibəsinin başlanması 1993-cü ilin siyasi mənzərəsini dolğun şəkildə əks etdirirdi. 1993-cü ilin yayında ölkədə vəziyyət getdikcə ağırlaşdı, hətta müstəqilliyimiz təhlükə altında idi. Hakimiyyət strukturlarına, o cümlədən, silahlı birləşmələrə nəzarəti itirən o zamankı Azərbaycan iqtidarı isə, 1993-cü ilin yayında ölkəni vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qoydu. Artıq bir sıra ərazilərdə - Gəncədə, Lənkəranda, Qusarda və digər regionlarda bəzi silahlı birliklər separatçı iddialarla çıxış edib, mərkəzi hakimiyyətə tabe olmadıqlarını bildirirdilər. 4 iyun 1993-cü ildə Gəncədə Azərbaycan Ordusunun keçmiş korpus komandiri Surət Hüseynovun başçılıq etdiyi hərbi qüvvələrlə hökumət qüvvələri arasında silahlı toqquşma baş verib. S.Hüseynovun nəzarətində olan 709 saylı hərbi hissənin tərksilah edilməsi ilə bağlı həyata keçirilən əməliyyat uğursuz olub. Məlum hadisə nəticəsində hökumətə tabe olmayan hərbçilərlə hökumət qüvvələri arasındakı toqquşmada, ümumilikdə, 35 nəfər həlak olmuşdu. Gəncə hadisələri kimi tarixə düşən 4 iyun hadisələri AXC-Müsavat hakimiyyətinin iflası ilə nəticələndi. 1993-cü il iyunun 4-də Gəncədə baş vermiş facię əvvəlcədən hazırlanmış, cinayət törətmiş hərbi əməliyyatların ağır nəticəsidir.

## "GƏNCƏDƏ TOQQUŞMA BAŞ VERDİ, QAN TÖKÜLDÜ"

Gəncəyə göndərilmiş hökumət rəsmiləri S.Hüseynovun dəstəsi tərəfindən girov götürülüblər. Bu hadisə Azərbaycanda dərinləşməkdə olan hərbi-siyasi böhranı kritik həddə çatdırıb və ölkə vətəndaş müharibəsi astanasına gətirilib. 8 iyun 1993-cü ildə Gəncə hadisələri ilə bağlı ölkədə böhran dərinləşib. S.Hüseynovun tabeçiliyindəki silahlı birləşmələr Gəncəbasar bölgəsində yerli hakimiyyət strukturlarını devirərək, Bakıya doğru hərəkət etməyə başlayıblar. Vətənin bu ağır günündə xalq Ulu Öndər Heydər Əliyevi Naxçıvandan Bakıya dəvət edir. Ümummilli Lider Heydər Əliyev xalqın və respublikanın hakim dairələrinin təkidli dəvətini qəbul edib, iyunun 9-da Bakıya gəlib və qısa zaman ərzində, Azərbaycanda vətəndaş müharibəsinin qarşısını alıb. Görkəmli dövlət xadimi Heydər Əliyev o dövrün Azərbaycanını belə xarakterizə edirdi: "1993-cü ilin iyun ayında Azərbaycanda böyük dövlət böhranı yarandı. Azərbaycan dağılmağa başladı, o vaxtkı iqtidar ölkəni idarə edə bilmədi. Gəncədə toqquşma baş verdi, qan töküldü. Gəncədə başlayan hərəkat Azərbaycan ərazisinin, demək olar ki, yarıdan çoxunda hakimiyyəti öz əlinə aldı. Vaxtilə məni təqib edən, Naxçıvanda məni devirmək, məni Azərbaycandan sıxışdırıb çıxarmaq istəyən o vaxtkı iqtidar belə bir zamanda ələcsiz qaldı və mənə müraciət etdi. Ancaq ondan əvvəl mənə müraciət edənlər bizim partiyanın üzvləri, Azərbaycanın müxtəlif təbəqələrinin nümayəndələri, ziyalıları oldu. Onlar məni yenidən Bakıya dəvət etdilər".

1993-cü il iyunun 15-də Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanı təhlükədən xilas etdi. O dövrdə baş verən hadisələr bir daha tarixi gerçəkliyi üzə çıxarmış olur. Belə ki, 1993-cü ilin iyununda xalqın dəvəti ilə Ümummilli Lider Heydər Əliyev yenidən hakimiyyətə qayıtmasaydı, bu gün Azərbaycanın müstəqilliyindən söhbət açmaq mümkün olmayacaqdı.

## ÖLKƏMİZİN SİYASİ TARİXİNDƏ YENİ MƏRHƏLƏNİN BAŞLANĞICI

Məhz xalqın belə bir ağır məqamında dünya şöhrətli siyasətçi Ulu Öndər Heydər Əliyevin öz müqəddəs xilaskar missiyasıyla böyük siyasətə qayıdışı, Azərbaycanda illərlə davam edən anarxiyaya, siyasi hakimiyyətsizliyə, hərbiləşmiş cinayətkar dəstələrin qətl və özbaşınalıqlarına son qoymuş oldu. 1994-cü ilin oktyabr, 1995-ci ilin mart dövlət çevrilişi cəhdləri ən yeni tariximizin qara ləkələri kimi keçmişə həkk olunub. Bu təxribatlar müdrik dövlət başçımızın son dərəcə tədbirli, təmkinli və uzaqgörən siyasəti sayəsində baş tutmadı. Beləliklə, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra onun itirilməsinə yol vermədi. Ümummilli Lider Heydər Əliyev müasir Azərbaycan dövlətinin varlığını qorudu və Azərbaycan qarşısında tarixi bir missiyaya imza atdı. Bütün həyatını Azərbaycanın və xalqın taleyi ilə bağlayan Ulu Öndər Heydər Əliyev müstəqil dövlətimizin tarixini yaratdı. Tariximizə Milli Qurtuluş Günü kimi daxil olan 1993-cü il iyunun 15-də Ümummilli Lider Heydər Əliyevin Azərbaycan Respublikası Milli Məclisinə Sədr seçilməsi ölkəmizin siyasi tarixində keyfiyyətcə yeni bir mərhələnin başlanğıcı oldu. Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olan Milli Qurtuluş Günü Azərbaycan tarixinin şanlı qürur səhifəsinə çevrildi. 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində, Ulu Öndər Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. Ümummilli Liderin zəngin siyasi təcrübəsi, yüksək idarəçilik bacarığı, Vətənə olan tükənməz sevgisi Azərbaycanın dövlət müstəqilliyini təhlükədən qurtardı. Ulu Öndər ölkədə xaos və anarxiyanı, cəmiyyətdə hökm sürən iqtisadi-siyasi və mənəvi-psixoloji gərginliyi aradan qaldırdı.

## GƏLƏCƏYƏ BAXIŞ

Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində, Azərbaycan bu gün öz inkişafının ən sürətli dövrünü yaşayır. Ulu Öndər Heydər Əliyev tərəfindən qorunub-saxlanılan müstəqilliyimiz bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə daha da möhkəmləndirilib və Onun əbədiliyi təmin edilib. Ulu Öndərin quruculuq və inkişaf xəttinin davamçısı olan Cənab İlham Əliyev Onun siyasi kursunu uğurla davam etdirməklə, ölkəmiz sabitliyin və inkişafın, vətəndaş həmrəyliyinin təmin olunduğu güclü dövlətə çevrilib. İlham Əliyev Prezidentliyi dövründə ölkənin həyatının bütün sahələrində verdiyi vədlərin hər birini yerinə yetirmişdir. Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin modernləşdirilməsi, müasirləşdirilməsi, eləcə də, maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılması sahəsində kifayət qədər əhəmiyyətli işlər reallaşdırılıb. Məhz bunun nəticəsidir ki, Azərbaycan Cənubi Qafqaz regionunda ən güclü orduya malik ölkə statusunu daşıyır. Prezident İlham Əliyevin həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olması ilə nəticələndi. Müasir hərb elminin tələblərinə cavab verən Azərbaycan Ordusu döyüş meydanında erməniyə dərs verdi. Mükəmməl texnologiyamız, döyüş ruhumuzun yüksəkliyi, xalq-iqtidar birliyi, həmrəylik Azərbaycanın qalib dövlət kimi adını tarixə yazdı. Müzəffər Ali Baş Komandanın əmrinə əsasən, Ordumuz döyüş meydanında müharibə qanunlarına əməl etməklə, hərb tarixinə yeni səhifə yazdı. Artıq Qarabağ münaqişəsi həll olunub və Azərbaycan öz ərazi bütövlüyünü təmin edib. Prezident İlham Əliyevin vurğuladığı kimi, münaqişə artıq tarixə qovuşub və biz gələcəyə baxmalıyıq. Azərbaycanın işğaldan azad olunan torpaqlarında yeni həyat canlanır.

***Zümrüd BAYRAMOVA***

# Gözəllik salonlarında GƏLİN şirinliyi nədir?



*Toy hazırlıqlarının və gəlinin gözəlliyinin ən vacib elementlərindən biri də gözəllik salonu seçimidir. Bəs doğru salon tapmaq və düzgün qiyməti ödəmək üçün nə etməliyik?*

Məlumdur ki, bir çox gözəllik salonlarında gəlin saç, makiyaj və dırnağı adi müştəri ilə eyni olsa belə baha qiymətə deyilir. Buna xına, nişan və nikah günləri də daxildir. Bəs, bu tendensiya nədən qaynaqlanır? Əgər mən adi müştəri ilə eyni dırnağı, saçı, yaxud makiyajı edirəmsə, sırf gəlin olduğum üçün niyə artıq pul ödəməliyəm? SİA mövzu ilə bağlı araşdırma aparıb.

Toyunuza bir neçə ay qalıbsa, gəlin makiyajınızı mükəmməl etmək üçün hazırlıqlara başlamağın vaxtıdır. Aylardır hazırlaşdığınız bu özəl gündə hər bir detalı düşünərək mükəmməl görünmək istəməniz təbii ki, çox normaldır. Ancaq bir çox gəlinlər gözdən qaçırdıqları xırda detallara görə makiyajın qurbanına çevrilə bilər. Bu qrupdan olmaq istəmirsinizsə, gəlin makiyajınızla bağlı qərar verməzdən əvvəl bilməli olduğunuz şeylərə nəzər salın.

Gəlin makiyajında hansı rənglərə üstünlük verilməlidir?

Dərinizin tonundan tutmuş gəlinlik paltarınızın rənginə və modelinə qədər hər bir detal gəlin makiyajınız üçün hansı rəngləri seçəcəyinizi müəyyən edən amil ola bilər. Bu səbəbdən bir neçə sabit rəngdən danışmaq düzgün olmazdı. Ən özəl filmdə baş rolda oynadığınız bu özəl gündə sizə ən uyğun rəngləri seçməyiniz faydalı olardı. Bu rəngləri təyin edərkən gözəlliyinizi örtməyən tonları seçin. Mütləq qırmızı pomada istifadə etmək lazım deyil. Çəhrayı, bənövşəyi və hətta qəhvəyi pomada ilə gözəl görünə bilərsiniz. Önəmli olan sizə uyğun olan rəngləri əvvəlcədən kəşf edib gəlin makiyajınızda bu rənglərə diqqət yetirməkdir. Fotoşəkillərdə qəşəng görünmək üçün çox açıq tonlardan və çox tünd tonlardan uzaq olmaq kifayətdir.

## Gəlin makiyajı toydan neçə saat əvvəl edilməlidir?

Gəlin makiyajınızın şadlıq sarayına getməzdən əvvəl edilməsi makiyajınızın daha uzun müddət qüsursuz görünüşünü saxlamasını təmin edəcək. Odur ki, gəlinin baş örtüyü bitdikdən sonra ən son olaraq makiyaj mərhələsinə keçməlisiniz. Ancaq heç vaxt kiçik uğursuzluqları görməməzlikdən gəlməməlisiniz.

## Qiymətlər

Adi məhlə arasl salonlarda gəlin saç-makiyajı 100-150 AZN civarında olur. Lakin daha prestijli yerlərdə bu 200- dən başlayaraq 1500 manata qədər davam edir.

Gəlin makiyajı edəcək insanı necə seçməlisən?

Demək olar ki, hər gözəllik salonunda makiyaj ustası var. Ancaq təsəvvür etdiyiniz kimi, hər bir makiyaj mütəxəssisinin eyni bacarıq və biliklərə sahib olduğunu düşünmək düzgün deyil. Həyatınızın ən özəl günündə qüsursuz görünmək üçün tələbinizi qarşılaya biləcək makiyaj mütəxəssisi ilə işləmək lazımdır.

## Gəlin makiyajı məşqi nə vaxt edilməlidir?

Makiyajınızı məşq etmək üçün ən yaxşı vaxt toya 10 gün qalmışdır. Çünki kataloqda gördüyünüz gəlin makiyajı nümunələrini bəyənsəniz belə, makiyajınızı edəcək adamın işindən razı qalmaya bilərsiniz. Başqa bir usta tapmaq üçün isə vaxt lazımdır. Makiyaj üçün ən yaxşı vaxt axşam saatlarıdır. Bunun səbəbi yalnız makiyajın necə göründüyünü yox, həm də nə qədər qaldığını yoxlamaq lazımdır. Makiyajınızı heç vaxt silməyin. Bu sayədə onun qalıcılığını yoxlamaqla yanaşı, makiyajınızı nə vaxt yenilənməli olduğunuzu və ya hansı materialın bir müddət sonra görünüşünü dəyişdiyini asanlıqla yoxlaya bilərsiniz. Məşq zamanı rəngləri sınamaqdan heç vaxt qorxmayın.

## Gəlin makiyajında hansı məhsullara üstünlük verilməlidir?

İstifadə olunan məhsulların keyfiyyət səviyyəsi mütləq yüksək olmalıdır. Professional makiyaj üçün istehsal olunan məhsullardan istifadə etdikdə üzünüzdə maska olması təsirindən qurtula bilərsiniz. Ancaq kiçik detallara da diqqət yetirin. Misal üçün, göz altı örtücü heç vaxt ağ olmamalıdır. Fotoşəkillərdə flaş yanıb-sönəndə ağ göz altı örtücü daha çox görünə bilər. Tonal kreminizin rəngi dəri tonunuzla tam eyni olmalıdır. Bəzi gəlinlər tonal kremin daha açıq tonunu seçə bilər, lakin bu, fotolarda xoşagəlməz görüntü yaradar.

## Türkiyədə bir usta

Cəmiyyətdə gəlin saçının baha olduğuna dair bir fikir olduğunu deyən salon ustası gəlin saçını düzəldən ustaların vaxtlarının çoxunu gəlin nazmizədlərə ayrıldığını deyib. Gəlin ən azı 3 saat gözəllik salonunu məşğul edir. Çünki həmin gün gəlinin ən özəl günüdür. O, gözəl olmaq və düzgün saç düzümünə sahib olmaq istəyəcək. Gəlin saçı düzəltmək bir sənətdir" dedi.

Gəlin saçı və makiyajının qadın üçün haradasa həyati əhəmiyyət daşıdığını ifadə edən usta, "Gəlin saçınız və makiyajınız bütün fotoşəkillərinizdə gəlinlik qədər ön planda olacaq. Odur ki, gəlinin saçı ən düzgün şəkildə hazırlanmalıdır. Saç və makiyaj gəlinliyə, toy məkanına, boyun boyuna və hətta üz cizgilərinə görə edilir. Ona görə də düzgün usta seçmək çox önəmlidir".

Hicablı gəlinləri bəzəmək daha çətindir

Hicablı gəlin başı düzəltməyin normal saç düzəltməsindən daha çətin olduğunu ifadə edən salon işçisi, bu tip gəlin başı modelləri də çox incə işçilik tələb edir. Hətta burada saçın daranma üsulu da fərqlidir. Çalmağı ən gözəl şəkildə bağlamaq da çox çətindir. Açıq saçlarınızı istədiyiniz şəkildə tərtib edə bilərsiniz. Amma çalmağınıza müəyyən bir forma verə bilərsiniz. Ona görə də çalmalı gəlin başı düzəltmək açıq gəlin başı düzəltməkdən qat-qat çətindir.

Sizi bəzəyəcək vizajistlə görüş təyin edərkən edilməsi lazım olanları izah edən usta, toydan əvvəl mütləq görüş təyin edin. Ustanızı seçməzdən əvvəl gəlin saçını düzəldən dostlarınızla danışın. Unutmayın ki, gəlin başı təcrübəli vizajistlərin bacarıqlı əllərinə verilməlidir. Bəzi ustalar toydan əvvəl gəlinlə saç düzümünü və makiyajı test etməyə razı olacaqlar. Bu yolla necə görünəcəyinizi əvvəlcədən görmək şansınız ola bilər.



Dırnaq ustası Rəna Hüseynova: "Adi makiyajın qiyməti 50-70 manat olduğu halda, gəlin makiyajı 200-300 manatdır. Bunun səbəbi odur ki, gəlinin üzərində xüsusi çalışırsan. Həm də bizdə şirinlik deyilən bir şey var. Həm də gəlin dırnağının üzərində həqiqətən əziyyət çəkirsən. İstəyirsən ki, çox daha səliqəli və gözəl olsun.

Normal müştərini 25-30-35 manata edirik. Gəlin dırnağı isə 50 manatdır. Düşünürəm ki, burada elə də böyük fərq yoxdur. Həm də bu gəlinin istəyindən asılıdır. Daha dəbdəbəli dırnaq istədikdə normal olaraq qiymət də artır".





Gözəllik salonu sahibi Sevinc Məmmədova: "Gəlinə baha qiymət deyilməsinin səbəbi bizim mentalitetimizdən irəli gəlir. Yəni, ustaların bir çoxu düşünürsə, toy evidirsə, bunları soyub buraxaq. Düşünürlər ki, toy evidir, utanacaq və yüksək məbləğə yox deməyəcək. Amma məjim salonumda belə hallar çalışıram ki, olmasın. Hətta 100 manata dırnaq, saç, makiyaja da icazə verirəm. Ustalarıma deyirəm ki, əgər adi müştəri ilə gəlinə həmin işi görürsənsə, niyə əlavə pul almalısan? Bu, düzgün deyil.

Mən hara getsəm salon müdürü olduğumu demirəm. Çünki bunu eşidən ustalar məndən ikiqat pul alırlar. Qohumların yanına getmirəm, onlardan irəli düşdüyüm olmayıb. Adam qohumdur deyə, sözünü də deməyə çəkinir".

**Ayşən Vəli**

ARAŞDIRMA

# Həkim təsdiq etdi, İlqar Məmmədov "şizofrenik" xəstədir

***Xəstələnmək və xəstəlikdən müalicə olunmaq insanların alın yazısı və yaşam tərzidir. Yəni heç bir insan istənilən xəstəliyə mübtəla ola biləcəyindən sığortalanmayıb. Dünən yanaqlarından qan daman, görkəmindən sağlam, gümrah insan təəssüratı bağışlayan varlıq bu gün xəstə çarpayısında canı ilə əlləşdiyini görmək olar. Ona görə də, ermənilərі və ermənі sifətliləri, eləcə də fars-molla rejiminin əmmaməli mollalarını çıxmaq şərti ilə hər bir bəşər övladına sağlam, təhlükəsiz ömür arzulayıram.***



Hər bir xəstə müalicə olunub, sağlam həyata qayıdıb, yaşamalıdır. Artıq tibb elmi o dərəcədə inkişaf edib ki, istənilən növ xəstəliyi aradan qaldırmaq və müalicə etmək mümkündür. Sadəcə, elə xəstələr və xəstəliklər var ki, onların müalicəsinə cəhdlər göstərilə bilər, lakin prosesin uğurla nəticələnəcəyi inandırıcı deyil. Çünki tibb elmi nə qədər inkişaf etsə də, bəzi xəstəliklərin tam müalicəsini həyata keçirməkdə çarəsizdir. Şizofreniya ciddi və kompleks ruhi xəstəlikdir. Hələ ki, bu xəstəliyi müalicə etmək hansısa həkimə müəssər olmayıb. Bu baxımdan bu xəstəliyin daşıyıcıları cəmiyyətlər üçün həyəcanlı və qorxulu anlar yaşadan xəstələr hesab olunurlar. Təəssüflər olsun ki, ölkəmizdə də bu xəstəliyin daşıyıcıları var. Xüsusilə də həmin xəstələrin sırasında özlərini siyasi partiyanın yetkilisi, bəzən isə başqanı, sədri adlandıran şəxslər də var. Belə xəstə şəxslərdən bir də Real partiyasının sədri İlqar Məmmədovdur. Bu məxluqun hərəkətlərinə, danışıqlarına fikir verdikdə heç bir şübhə yeri qalmır ki, bu məxluq şizofreniyadır.

### İlqar Məmmədov şizofreniya xəstəliyinin ən ağır növünü yaşamaqdadır

İlqar Məmmədovun fikirlərini analiz edən həkim dostlardan birinin mənə dediyinə görə, Real sədri şizofreniya xəstəliyinin ən ağır növünü yaşamaqdadır. Həkim dostumuzun dediyinə görə, şizofreniyanın əsasında düşüncə və qavrayışın pozulması dayanır: "Xəstəlik zamanı intellektual qabiliyyət əsasən pozulmasa da, fərdi xüsusiyyətlər və özünü idarəetmə bacarığı itirilir. Şizofreniya başlanğıcı zamanı xəstənin mövcud məşğulliyətində uğursuzluqlar, dərslərdə geriqalma, iş yerində işlərini yerinə yetirə bilməmək, ailədə, işdə, dostları arasındakı münasibətlərdə pozulmalar görülür". Həkim ümidverici fikirləri də söylədi. Bildirdi ki, şizofreniya heç də həmişə neqativ olmur: "Pozitiv şizofrenik də var. Bu tip şəxslər danışanda gülümsəyir, bəzən isə yersiz formada gülürlər. Özlərini dünyanın xoşbəxti hesab edirlər, vaxtaşırı olaraq özünü ağıllı, bilikli şəxs hesab etmək, başqalarına öz iddialarını yeritmək kimi absurt düşüncələri də var". Doğrudan da həkimin söylədikləri tam şəkildə İlqar Məmmədovun fəaliyyətində və danışıqlarında açıq şəkildə görmək olar. Birincisi, bu məxluq özündən razıdır, təkəbbürlüdür, özünü bilikli və ağıllı hesab edir. Halbuki, dostlardan biri demişkən, tpoyun-danqırın biridir. İkincisi, danışanda öz-özünə gülür. Üçüncüsü, bu məxluq ölkəmizdə həyata keçirilən genişmiqyaslı quruculuq abadlıq işlərinə qara eynəkdə baxdığından hər şeyi qara görür. Dördüncüsü, satqın və xəyanətkardır. Azərbaycanın milli və dövlətçilik maraqlarını pul qarşılığında Avropanın ermənipərəst dairələrinə satır. Beşinci altıncı

### Konstitusiyanın 85-ci maddəsinə əsasən "ağır cinayətlərə görə məhkum olunmuş şəxslər Azərbaycan Respublikasının Milli Məclisinə deputat seçilə bilməzlər"

İ.Məmmədovun əbləhliyini sübut edən, ağılsızlığına dəlil olan faktlar: Bu məxluq hələ bir il öncədən iddia etməyə başlayıb ki, o deputat olacaq. Hətta iddia edir ki, deputatlığa namizədliyinin müdafiəsi üçün təşkilat komitəsi yaradıb, bloklar formalaşdırıb. Adama deyən lazımdır, ay məxluq, elimizin gözəl bir atalar məsəli var, "Arxı keçmədən hop demə". Bu xəstə isə arxa bir neçə kilometr qalmasına baxmayaraq "hop" sözü dilinin əzbərinə çevrilib. Hər gün utanıb-çəkinmədən iddia edir ki, onun deputatlığa namizədliyinin müdafiəsi ilə bağlı filan sayda üzv toplanıb, filan sayda da təəssübkeşi var. Anlamır ki, qanunvericiliyə görə, onun deputatlığa namizədliyini irəli sürməsi yolverilməzdir. Çünki cinayət törədib və cəzasını da çəkib. Azərbaycan Respublikası Konstitusiyasının 85-ci maddəsinə əsasən "ağır cinayətlərə görə məhkum olunmuş şəxslər Azərbaycan Respublikasının Milli Məclisinə deputat seçilə bilməzlər". İlqar Məmmədov İsmayıllı rayonunda iğtişaşların təşkilində iştirak etdiyinə görə, Şəki Ağır Cinayətlər Məhkəməsinin 17 mart 2014-cü il tarixli hökmü ilə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin (CM) 220.1-ci və 315.2-ci maddələrində nəzərdə tutulmuş cinayət əməllərini törətməkdə təqsirli bilinib ona 7 il müddətə azadlıqdan məhrum etmə cəzası təyin edilib. Sonrakı mərhələdə də bu üzəniraq məxluq müxtəlif cinayət əməllərini törətməkdə təqsirli bilinib və haqqında cinayət işi qaldırılıb. Bu və digər səbəblərdən İ.Məmmədov xəyalında qurduğu deputatlığa namizədliyini irəli sürə bilməz. Artıq ona Avropa İttifaqının qaranlıq dairələri də kömək edə bilməyəcək. Hay-küy qaldırmasının, şər və böhtanlar səsləndirməsinin də faydası olmayacaq. Qanun - qanundur. Səbəbsiz yerə deyilməyib ki, qanun şahdır, şah qanun deyil. Yaxşı olardı ki, İ.Məmmədov bu reallığı qəbul edib, sussun. Danışdıqca özünü daha çox batırır, dilləndikcə şizofrenik xəstəliyinin ağır nəticələri daha qabarıq şəkildə özünü göstərir.

### İlqar Məmmədov indi də ingilis dilində kitab yazır

Görünən ondan ibarətdir ki, İ.Məmmədov susmaq fikrində deyil. Təbii ki, bunun da kökündə xəstəliyi dayanır. Yenə təkəbbürlü formada bəyan edib ki, o ingilis dilində kitab yazıb. Bu yerdə deyiblər, "dağılasan, a dünya". Gör nə günlərə gəlib çıxdıq ki, sol əli ilə boyunun arxasından sağ qulağını qaşımağa cəhd edən xəstə bir məxluq kitab yazır, özü də utanmadan bəh-bəhlə deyir ki, kitabın satışını Avropa İttifaqına daxil olan ölkələrdə təşkil edəcək. Məxluqun statusundan çıxarış: "Kitabım nəhayət dərc olundu. Onu ingilis dilində yazdım, çünki birinci auditoriyası beynəlxalqdır. Azərbaycancaya və ruscaya tərcümə edəcəm və onlar bir neçə aydan sonra çıxacaq. Başqa dillərlə bağlı təkliflər olsa, baxa bilərik. Xüsusilə də Türkiyədə bu kitaba marağın ola biləcəyini ehtimal edə bilərəm". İ.Məmmədov kitabına Azərbaycan manatı ilə deyil, Avropanın valyutası ilə qiymət qoyub. Düşüncəsinə görə Azərbaycanda kitabın alıcısı çox olacaq. Ona görə də avropalılarla müqayisədə azərbaycanlılara kitabı daha baha qiymətə sırımağı xəyal edir. Yazır: "Azərbaycanda yaşayırsınızsa, çatdırılması ilə bir yerdə qiyməti bir az baha çıxacaq 23,12 euro. Amma Avropadasınızsa, məsələn, Fransada, qiyməti gəlib çıxacaq 13,86 euroya, bəzi ölkələrdə isə daha da aşağı. İngiltərədə və Amerikada yaşayırsınızsa, kitab mağazalarında istəyin sifariş etsinlər - onda sizə daha ucuz başa gələcək".

Bir sözlə, tam "şizofrenik" xəstələrə xas xüsusiyyətlərlə zəngin olan fikirlər İ. Məmmədovun kitabla bağlı paylaşımında yer alıb. Kimsə mənim şərhimə şübhə ilə yanaşırsa və dodaq büzürsə, buyurub İ.Məmmədovun səhifəsinə daxil olub, yazdıqları ilə tanış ola bilərlər. Əminəm ki, statusla tanış olduqdan sonra bir xeyli güləcəklər, daha sonra başlarını bulayıb, "həqiqətən də bu bədbəxt xəstədir", - deyə dodaqlarının altında mızıldanacaqlar. Son olaraq onu vurğulamaq istərdim ki, əgər Avropa İttifaqının bəzi üzdəniraq deputatları İ.Məmmədova hansısa məsələdə güvənirlərsə və ona maddi və mənəvi yardımlar etməklə nələrəsə ümid edirlərsə, vay belə qurumun halına . Belə demək mümkünsə həmin avropalı deputatlar da elə İ.Məmmədov kimi "şizofrenik" xəstələrdir.

***İLHAM ƏLİYEV***

---



# Sevginin həddi...

**Mətanət Məmmədova**

***Bu fikirdəyəm ki, heyvanları sevməyən hissiz, duyğusuz adamdır. Həm də özünə hörmət qoymur ki, heyvanlara da sevgi verə bilmir. Yəni, onları sevmir. Sevimlidir heyvanlar, buna şübhə yoxdur. Onları sevdikcə sanki insani duyğularımız çoxalır. Onların bizə ehtiyacı olduğunu anlayırıq. Həm də köməyə ehtiyacları olduğunu dərk edirik. Bu köməyi isə yalnız biz onlara edə bilərik.***

Edirik də... Heyvanlara yem alıb veririk, müxtəlif yerlərə su qabları yerləşdiririk. Onların mühafizəsi və qorunması üçün tədbirlərə qoşuluruq, yaşıllıqları çoxaltmağa çalışırıq ki, bu, heyvanlar üçün daha vacibdir.

Hətta heyvanları evlərimizdə də saxlayırıq. Onlar bizim dostumuz, həmdəmimiz, bəzən sirdaşımız da olurlar. Bəzən evimizin səs-küyü, bəzən yol yoldaşımız, bəzən əsəblərimizi sakitləşdirəndir onlar...

Həqiqətən onları sevməmək mümkün deyil. Çünki çox sevimlidirlər, bəzən ətrafımızdakı insanların anlamadığı qədər bizi anlayır, qayğı göstərirlər. Elə heyvanlarla bizi bir-birimizə bağlayan da bu cəhətlərdir.

Lakin hər şeyin bir həddi olduğunu da unutmasaq, daha yaxşı olar. Son günlərdə qarşılaşdığım bir neçə mənzərə ilə bunları söyləməyə haqlı olduğumu düşünürəm. Ona görə də deyirəm ki, ta bu qədər də yox da, sevginin də bir həddi olmalıdır axı...

Parkda gəzirəm. İki oğlan var qarşıda, itləri ilə gəzintiyə çıxıblar. Gəlib yanlarından keçəndə nə eşitsəm yaxşıdır? Oğlanlardan biri itə deyir ki, gedək ta, atam. Buyurun, siz deyin, olar belə? Necə yəni, gedək ta, atam. Bu, itə sevginin, hörmətin ölçüsüdürsə, bu ölçü dəyərini dəyişsək, daha yaxşı olar. Hər halda it itdir, nə qədər yaxın dost, sevimli heyvan olsa da. Ata da atadır ki, biz onu Allahdan başqa bütün varlıqlardan üstün tuturuq. O, heç kimə, heç nəyə bənzədilməyən böyüyümüz, ağsaqqalımız, əzizimizdir. İtə bu cür müraciət qəbahətdən qəbahətdir, deyilmi?.. Bu səbəbdən də sevginin həddini aşmayaq...

İşə gəlirəm, baxıram ki, bir qız qarşıdakı avtomobildən düşdü. Qucağında deyəsən uşaqdır, elə basıb ki, bağrına, az qalır bağrı çatlasın. Yaxınlaşıb nə görsəm yaxşıdır? Bu, uşaq deyil, itdir. Anlayırıq, sahibi itini çox sevir, lakin bu qədər yaxın təmas nə qədər doğrudur? Hansı birimiz evimizdə saxladığımız it və ya pişiklərin sağlamlığına təminat verə bilərik? Bu səbəbdən də sevginin həddini aşmayaq...

Keçən günlərdən birində yenə parkda baxıram ki, bir ana uşağı və iti ilə gəzintidədir. Eyni zamanda qonşusudur, qohumudur, bilmirəm, başqa bir qadın da var yanında, onunla möhkəm söhbətdədir. Uşaq da nə edir? Əlindəki peçenyeni, uzadır itə, o da ağzını vurur, sonra çəkir aparır bir dişlək alır, yenə itə tərəf uzadır... Ana isə söhbətdədir. Bunların heç birini görmür. Dayana bilmədim, ananı xəbərdar etdim. O da sağ olsun, mənə elə qəribə bir göz süzdürdü ki. Amma cəhənnəmə süzdürsün. Uşağın sağlamlığı naminə deməli idim. Yenə də öz-özümə pıçıldadım: sevginin həddini aşmayaq...

Və yaxud da ki, qonşuda uşaqla bir yerdə yatan pişik. Uşaq yatıb, pişik də onun yanında, nəfəs-nəfəsə. Anasına deyirəm ki, axı belə olmaz. Cavab verir ki, tər-təmizdir, onun nəyi var ki... Çimdirirəm, təmizləyirəm, həkimə göstərirəm. Amma mən onun bu fikirləri ilə qəti razılaşmıram. Deyirəm ki, həkim hansı USM-dən keçirib bunu, daxilində hansı xəstəliyin olmasını müəyyənləşdirib? Yoxsa kompüter tomoqrafiya edib, xəbərimiz olmayıb?

Ana gülümsəyir...

Mən də deyirəm ki, sevginin həddini aşmayaq...

---

# Əgər uşaqlarınızda bu əlamətlər varsa...

"Başqalarına zərər vermək, aqressivlik, dağıtmaq, vurmaq, sındırmaq, yalan danışmaq, narahatlıq və problem yaratmaq, ünsiyyət qura bilməmək, diqqət dağınıqlığı, qəzəbli olmaq, dırnaq yemək, barmaq əmmək, valideynlər və dostlarla tez-tez mübahisələr, başqalarının əşyalarını icazəsiz götürmək, ağlamaq, istəmədiyi bir vəziyyətlə qarşılaşdığı zaman özünü yerə çırpmaq, baş, göz, çiyin tikləri və həddindən artıq qısqanclıq, tənqidə müqavimət, məktəbdən yayınma, məktəb qorxuları, məktəb həyatını və dərslərini sevməmək, əşyaları məhv etmək, tez-tez şikayət etmək və şikayətlərini əsaslandırmaq,verilən tapşırığı tamamlaya bilməmək, digər uşaqlar tərəfindən təcrid olunmaq

**PSİXOLOQDAN AÇIQLAMA**



davranış pozuntusunun əlamətlərinə daxildir". Bu sözləri psixoloq Leyla Əli uşaq və yeniyetmələrdə rast gəlinən davranış pozuntusunun əlamətləri haqqında danışarkən deyib.

Psixoloq sözlərinə belə davam edib: "Əbəs yerə bu qədər əlamətlər sadalanmır. Bu valideyn üçün siqnaldır. Bu əlamətlərdən bir neçəsi müşahidə olunduğu zaman valideyn artıq düşünməyə başlamalıdır. Davranış pozuntusunun müalicəsində uşaq və ya yeniyetmənin valideynləri ilə işləmək başlıca şərtlərdən biridir. Əksər hallarda valideynlər davranış pozuntusunun əsas səbəbkarı kimi öz övladını görür. Amma övlad valideynin bir parçası olduğu kimi müalicə də kompleks şəkildə aparılmalıdır. Diaqnoz psixiatr tərəfindən qoyulur, terapiyası psixoloq tərəfindən aparılır".

***Ayşən Vəli***

*Erməni kilsəsi ilə ölkə hakimiyyəti arasında münaqişə rəvan şəkildə İrəvandan arxiyepiskop Baqrat Qalstanyanın etiraz aksiyaları keçirməyə hazırlaşdığı “daşlar ölkəsi”nin 2-ci böyük şəhəri Gümrüyə axır. Bu arada Paşinyan kilsəyə, daha doğrusu, onun maliyyə gücünə güclü zərbə vuraraq “ erməni apostol kilsəsinin təsir agentləri ilə məsələni həll etmək niyyətində olduğunu” bəyan edib. Ermənistanda hakim “Vətəndaş sazişi”ndən olan Milli Assambleyanın deputatları kilsə əmlakının vergiyə cəlb edilməsi haqqında qanun layihəsi hazırlayırlar.*




# Rusiyalı ekspertlər: “Erməni kilsəsi revanşist ideyaları ilə İrəvanı intihara sövq edir”

Paşinyan hökuməti ilə kilsə arasında münaqişə nə vaxta qədər davam edəcək? Bunun sonu necə olacaq? Rusiyalı ekspertlər bu məsələlərlə bağlı fikirlərini “Caliber” analitik mərkəzinə şərhlərində açıqlayıblar. Şərhləri oxucularımıza təqdim edirik.

## “Paşinyan sərt davransa, bu, erməni kilsəsi üçün yaxşı bitməyəcək”

Politoloq, “Vestnik Kavkaza” informasiya agentliyinin baş direktorunun müavini Andrey Petrovun fikrincə, hakimiyyətlə kilsə arasında münaqişə Paşinyan komandasının Ermənistanda liderliyə iddialı bütün qüvvələrə və hakimiyyət dəyişikliyinə qarşı ümumi mübarizəsinin təbii nəticəsidir.

“Paşinyan erməni diasporası ilə heç də Rusiyaya qarşı apardığından daha az fəal mübarizə aparmır və istər-istəməz toqquşmalı olduğu qüvvələrdən biri də erməni kilsəsidir. Bu münaqişənin çox konkret əsası var, burada katolikos özünü Ermənistanın hökmdarlarından biri, onun bir növ mənəvi lideri, güclü nüfuz sahibi hesab edir. Əgər əvvəllər Ermənistanda hakimiyyət erməni kilsəsinin ümid etdiyi millətçi kursu tam şəkildə təmsil edirdisə, indi hər şey dəyişib. İndi isə baş nazir Paşinyan Bakı ilə dinc dialoq proseslərinin başında olanda kilsə ona fəal şəkildə qarşı çıxır”,- deyə A.Petrov qeyd edib.

Onun fikrincə, kilsə bu və ya digər şəkildə, revanşizm tezisləri ilə oynayaraq bütün sülh proseslərini dayandırmağa və təzyiqini gücləndirməyə çalışır. Beləliklə, tamamilə məntiqlidir ki, hansısa mərhələdə eks-prezidentlər Sarkisyan və Köçəryan kimi revanşist “qocaların” maraqları ilə erməni kilsəsi bir-birini tapıb, bir növ ittifaq yaradılıb- necə deyərlər, müharibədə bütün vasitələr məqbuldur. Sarkisyan və Köçəryan isə Paşinyanla aktiv qarşıdurma üçün yeni alət kimi cübbəli obrazdan istifadə etmək qərarına gəliblər.

“Məsələn, bu mənada cəmiyyətin əvvəlki kimi millətçi ilə yox, dini hissləri ilə oynamaq, məsələn, “Nikol Paşinyan öz ruhunu şeytana satıb” iddiası ilə çıxış etmək olduqca məqsədəuyğundur. Bu cür üsullar elektoratın intellektual cəhətdən çox inkişaf etməmiş hissəsi üçün çox yaxşıdır. Beləliklə, iddia etmək olar ki, erməni kilsəsi keşişi etirazların simvolik fiquru kimi irəli sürməklə, ən inanclı Ermənistan vətəndaşlarını aldatmağa və onlardan Ermənistanda faktiki hakimiyyət uğrunda mübarizədə istifadə etməyə çalışır. Erməni kilsəsinin Baqrat Qalstanyanın simasında ölkənin ehtimal olunan yeni baş naziri kimi son dərəcə faydalı variantı var. Beləliklə, Ermənistan hökumətin başında dini hakimiyyətin olduğu ölkələrdən birinə çevriləcək və marionetka Qalstanyan Eçmiədzinin göstərişlərini yerinə yetirəcək”,- politoloq qeyd edib.






Lakin hadisələrin sonrakı gedişatını proqnozlaşdırmağa çalışsanız, o zaman A.Petrovun fikrincə, bu etirazlar çox güman ki, heç bir nəticə verməyəcək. Baxmayaraq ki, çox güman ki, keçən payızda Xankəndindən gələn ermənilərı isinmə qrupu kimi istifadə edirlər. Lakin politoloqun fikrincə, Ermənistandakı hazırkı etirazların miqyası birmənalı olaraq mövcud hakimiyyətin devrilməsinə gətirib çıxara bilməz: əhval-ruhiyyənin intensivliyi çox aşağıdır və boş zibil qablarının küçələrə yuvarlanması kimi hərəkətlər ümumiyyətlə gülünc və aciz görünür.





“Təbii ki, indiki etirazlardan bəhrələnən erməni diasporudur- diaspor Azərbaycanla müharibəyə susuzluq və Türkiyə ilə düşmənçilik hissi ilə alışıb-yanan, Paşinyanın öz tabeçiliyindən çıxıb öz bildiyi kimi çıxış etməsindən narazı olan ən real qüvvədir. Erməni diasporu Paşinyanla mübarizə aparmaq, müxalifəti və kilsəni stimullaşdırmaq üçün külli miqdarda pul ayırmağa hazırdır. Amma bu, çətin ki, öz bəhrəsini versin- Paşinyan qanunvericilik səviyyəsində kilsə xadimlərinə zərbə vura bilər, məsələn, vergi güzəştlərini ləğv etməklə. Erməni din xadimləri özləri də baş nazirlə problem yaratmayacaqlar- Paşinyan sərt davransa, onlar üçün yaxşı olmayacaq, çünki hakimiyyət hələ də Eçmiədzinin əlində deyil, onun əlindədir. Paşinyan Ümumdünya Erməni Konqresinə təzyiq göstərməklə, təbii ki, dünya ermənilərı arasında imicini daha da korlayacaq, lakin o, buna yad deyil. Buna görə də, hökumətlə kilsə arasındakı döyüşdə indiyə qədər ənənəvi mənəvi yox, qanuni dövlət hakimiyyəti qalib görünür”,- deyə A.Petrov bildirib.

## “İslamofobiya və türkofobiyanın sonu erməni ruhaniləri üçün çox pis başa çata bilər”

Tanınmış politoloq, Avrasiya üzrə ekspert Aleksandr Razuvayevin fikrincə, erməni kilsəsi həmişə təsir agenti olub. “Ancaq Nikol Paşinyan parlamentdə çıxış edərkən dediyi kimi, bir neçə ay ərzində bu məsələni həll edəcək. Məsələn, baş nazir qeyd edib ki, orta əsrlərdə erməni ruhanilərinin nümayəndələri Bizans Qeysəriyyəsinə gediblər: orada formalaşdırılıblar və Ermənistana qayıtdıqdan sonra təsir agentinə çevriliblər. Bir tərəfdən Paşinyanın bəyanatı çox mübahisəlidir, çünki Bizans xristianlığın qalasıdır və belə çıxır ki, yunanlar Rusiyanı vəftiz edəndə öz keşişləri vasitəsilə də nüfuz agentləri yerləşdiriblər. Amma ən azı Paşinyan bir məsələdə haqlıdır: kilsənin işi ibadət etməkdir, siyasətlə məşğul olmaq yox.

Doğrudan da, erməni kilsəsinin bəzi nümayəndələri Azərbaycandan qisas almağa can atırlar. Amma bu, Ermənistan üçün intihardır; Belə çıxır ki, onlar öz maraqlarını öz xalqlarının mənafeyindən üstün tutmaq, Ermənistanı tamamilə məhv etmək istəyirlər? Əksinə, indi Ermənistanda ağır iqtisadi vəziyyət yarandığı üçün erməni kilsəsinin Rusiya ilə, Rus Pravoslav Kilsəsi ilə ittifaqı müdafiə etməsi daha məntiqli olardı. Və erməni kilsəsinin xətti Qarabağda qisas almaq üçün deyil, Rusiya ilə ittifaq üçün olacaqdı.

Kilsə, ilk növbədə, müdrikdir. Rus Pravoslav Kilsəsi bolşeviklərin qələbəsi ilə çətin vəziyyətə düşdüyü halda belə Sovet hökumətinə güzəştə getdi, sağ qaldı və cəmiyyətdəki təsirini saxladı. Kilsə ağıl və müdriklik gətirməli, millətçi emosiyalarla idarə olunmamalıdır. İslamofobiya çox pis təfəkkürdür və indi həm bunun, həm də türkofobiyanın günahkarı erməni kilsəsidir ki, bunun sonu bir gün erməni ruhaniləri üçün çox pis başa çata bilər”, - deyə A.Razuvayev qeyd edib.

***Tərcümə - Elçin Bayramlı***

ŞƏRH

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi



*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması" istiqaməti çərçivəsində hazırlanıb.*

# "Buratino" doğma dildə milli səhnədə

***Dünyada sülhün iki simvolu var, biri ağ göyərçinlər, digəri gülümsəyən uşaqlar. Hər ikisi saflığın, təmizliyin, dincliyin simvoludur. Dünyada sabitliyi, dincliyi, sülhü ən çox arzulayan da övladı olan insanlardır. Dünyanın yaşanacaq yer olması üçün, uşaqlarımızın sülh içində böyüməsi üçün bu sabitliyi qorumaq məcburiyyətindəyik.***

Bəşəriyyətin xoşbəxtliyi uşaqların qorunmasından, onların yaxşı tərbiyə olunmasından asılıdır. Axı bu günün uşaqları sabahın böyükləri, dolayısı ilə idarəçisidirlər. Sülhü təmin etmək üçün bütün dünya uşaqları arasında dostluq əlaqələrini qurmaq, bütün xalqların vəhdətini yaratmaq, uşaqlara sülhün nə demək olduğunu anlatmaq lazımdır. 1 İyun tarixi uşaqların müdafiəsi istiqamətində təsis edilmiş, bu məqsədlə qeyd edilən tarixdir. Amma ilin 1 günü yox, bütün günləri onlarındır – təhlükəsiz, sabit, sülh ilə təmin olunmuş bir dünya borcluyuq onlara.

Əslində, valideyiniksə, bütün söhbətlərin sonu dönüb-dolaşıb uşaqlara gəlir. Ən vacib qərarlarımız onlar haqqındadır, ən ciddi planlarımız uşaqlarımızın barəsindədir, ən böyük arzularımız onların gələcəyi ilə bağlıdır. Bütün həyatımız özümüzdən nələri isə uşaqlarımıza ayırmaqla keçir- diqqətimizi, qayğımızı, sevgimizi, sağlamlığımızı onlara sərf edirik. Uşaqların mədəni-mənəvi zövqünün formalaşmasında valideyn olaraq bizim rolumuz böyükdür. Mədəni zövqü olan, incəsənətlə əhatələnmiş mühitdə böyüyən uşaqlar sülh təminatı olan gələcəyin sərmayəsidir. Buna görə də onları tez-tez muzey, teatr kimi incə zövqü formalaşdıran məkanlara aparmaq lazımdır.

1 İyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günündə Azərbaycan Dövlət Akademik Musiqili Teatrında "Buratino" nağıl-tamaşası nümayiş etdirildi. Doğrudur, hamımız "Buratino"nu görmüşük, əksəriyyətimiz dəfələrlə izləyib, lakin biz bu nağıl-tamaşanı həmişə rus dilində izləmişik. Teatr tariximizdə ilk dəfə 2019-cu ildə Akademik Musiqili Teatr balacaların bu sevimli tamaşa personajlarını azərbaycanca danışdırıb. Görkəmli rus yazıçısı Aleksey Tolstoyun "Qızıl açar və yaxud Buratinonun macəraları" povesti əsasında hazırlanan bu tamaşanın quruluşçu rejissoru Elməddin Dadaşovdur.

Tamaşanın bədii rəhbəri Əməkdar incəsənət xadimi Əliqismət Lalayev, quruluşçu rəssamı Vüsal Rəhim, quruluşçu-baletmeysterləri Əməkdar artistlər Zakir Ağayev və Yelena Ağayeva, konsertmeysteri Fidan Məmmədova, rejissor assistenti Sevinc Məmmədovadır. 2019-cu



ildən Musiqili Teatrın səhnəsində oynanılan bu tamaşanın 35-ci nümayişinə teatrın mətbuat xidmətinin rəhbəri Fəridə Aslanovanın dəvəti ilə Uşaqların Beynəlxalq Müdafiəsi ünündə mən dəövladlarımla birlikdə iştirak etdim.

Hələ pərdələrin qalxmasına bir az vardı, foyedə tamaşanın rejissoru Elməddin Dadaşovla söhbətləşdik. Bildirdi ki, tamaşa 2019-cu ildə ilk dəfə 9-10 mart tarixində Milli Teatr Gününə bir töhfə olaraq təqdim olunub: "Nə xoş ki, həmin il biz "Akademik" statusu aldıq və bu tamaşamız tarixə Akademik Musiqili Teatrın ad aldıqdan sonra ilk uşaq tamaşası kimi düşdü. Hər birimiz postsovet dönəmində bu filmi "Belarusfilm"in təqdimatında izləmişik. Hörmətli teatr rəhbəri Əliqismət müəllimlə yaradıcılıq nöqteyi-nəzərindən müzakirəmiz zamanı ondan tamaşanın bədii rəhbəri olmasını xahiş etdim, çünki bir böyük kimi, bir ziyalı kimi fikirləri əhəmiyyətlidir. Bizim həmişə o fikirlərə ehtiyacımız var.

Biz fikirləşdik ki, niyə də bu tamaşa doğma dilimizdə olmasın? Çünki sovet dönəmində və ondan sonrakı nəsil onu rus dilində anladıqları üçün izləyirdilər. Amma dövrümüzdə də uşaqlar öz sevimli personajını azərbaycanca izləmək imkanı qazana bilərlər deyə düşündük. Düzdür, filmin orijinalı iki saatdır, amma biz 1 saat 15 dəqiqə çərçivəsində bir tamaşa hazırlamışıq. Tamaşanın əsas qayəsi və ana xətti ondan ibarətdir ki, dostluğa sadiq olun, oxuyun, öyrənin, böyükləri unutmayın. Hansısa ağır və gözlənilməz situasiyalara düşdükdə mütləq şəkildə hər zaman böyüklərin dediyi öyüdləri, nəsihətləri qulağınıza sırğa edin ki, sonra problemlərlə üzləşməyəsiz."

Rejissor bütün uşaqları müdafiə günü münasibəti ilə təbrik etdiyini, bundan sonra bütün günlərin uşaqlara sülh gətirməsini dilədi: "Bu özəl və gözəl gün münasibətilə canımız Azərbaycanda yaşayan, doğulan müqəddəs vətənimizin övladlarının canı-könüldən bayramlarını təbrik edirəm. Hər zaman xoşbəxt böyüsünlər, mətin addımlarla addımlasınlar, arzuları hər zaman çin olsun. Vətənimizə, yurdumuza layiqli övladlardan olsunlar. Hər zaman mədəniyyətimizdə öz nişanələri olan övladlardan olsunlar."

Sonra tamaşa başladı. Zalda xeyli məktəbli, azyaşlı tamaşaçı vardı. Müəllimlərin və valideynlərin uşaqlarda teatra həvəs yaratması, özəl günlərində onları bu mədəniyyət ocağına gətirməsi də təqdirəlayiq haldır. Rusdilli nağılın qəhrəmanlarını Azərbaycan dilində eşitmək zaldakı uşaqların marağına səbəb olmuşdu. Onu da qeyd edim ki, tamaşanın nəfis səhnə tərtibatı, dekorasiyası vardı, səhnənin idarəsi olduqca peşəkar idi. Hər səhnəciyə özəl tərtib edilmiş dekorasiya hərəkət edən döşəmə sayəsində yer dəyişdirir, aktyorların işini ləngitmir, balacaları gözlətmirdi. Aktyorların kostyumu, rəqslər və musiqilər də peşəkar hazırlanmışdı.

Tamaşaya teatrın aktyorları Zaur Əliyev, Telli Hüseynova, Ofeliya Məmmədova, Gülnarə Əzizova, Hüseyn Əlili, Mehriban Rəcəbova, Elnarə Nağdəliyeva, Nərmin Əliyeva, Rauf Babayev, Ruslan Mürsəlov Mehriban Rəcəbova, Cəbrayıl Cəbrayılov, Murad Əliyev, Nərmin Əliyeva və balet artistlərinin təqdimatında baxdıq.

Teatrdan xoş təəssüratlarla ayrıldıq. Tamaşa boyunca mədəni-mənəvi zövqümüzü oxşayan aktyorlara, klasssik və ibrətamiz nağılı səhnələşdirib uşaqlarda incə zövq aşılayan rejissora və teatr rəhbərliyinə işlərində uğurlar, bol tamaşaçı və sürəkli alqış diləyi ilə...

**Lalə Mehralı**







SON SƏHİFƏ
SƏS
4 iyun
2024-cü il

# Bağırsaqlar dönərxanalara verilə bilərmi?



*Son zamanlar sosial şəbəkələrdə bağırsağın dönərxanalara verildiyi iddia edilir. Bəs, bu nə dərəcədə həqiqətə uyğundur? İnsan orqanizminə zərəri varmı? SİA mövzu ilə bağlı Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynovun fikirlərini öyrənib.*



Onun sözlərinə görə, istisna olunmur ki, bağırsaqlar dönərxanalara verilsin: "Əgər murdar olmamış heyvanın ətidirsə, bağırsaqlar yeməlidir. Yəni normal heyvan ətidirsə, ola bilər bağırsaqlar dönərxanalara verilsin. Ancaq bütün hallarda istehlakçılara məlumat verilməlidir ki, bu bağırsaqdan hazırlanmış dönərdir, ola bilsin qatqısı var, başqa ətlə qarışdırılıb. Bir sözlə, burda istehlakçının məlumat almaq hüququ var".

Eyyub Hüseynov sözlərinə belə davam edib: "Əgər istehlakçının məlumat almaq hüququ gizlədilərsə, onda istehlakçı onun pozulması kimi qiymətləndirilə bilər. Bütün hallarda belə şeylə rast olanda istehlakçıların 1003 qaynar telefon xətti ilə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinə məlumat vermələrini tövsiyə edirəm".

*Ayşən Vəli*

# "Avtomobil bazarında ucuzlaşma davam edəcək"

**EKSPERT RƏYİ**

"Avtomobil bazarımızda ucuzlaşmaya son vaxtlar qəbul edilən qərarlar səbəb olub. Hazırda bütün dünyada elektrikli və hibrid avtomobillərə maraq artır. Yeni avtomobil almaq istəyən, yaxud avtomobilini yeniləyən şəxslər əvvəlcədən kiçik də olsa bazar araşdırması aparırlar. Eyni zamanda, taksi fəaliyyəti ilə bağlı qoyulan tələblər də avtomobil bazarımıza təsir edib. Yeni qaydalara görə köhnə avtomobillər artıq taksi xidməti göstərə bilməyəcək. Ona görə də sahibkarlar avtomobillərini satmağı üstün tuturlar. Satış artdığı zaman tələb və təklif qanunlarına görə qiymətin ucuzlaşması baş verir". Bu sözləri SİA-ya danışan nəqliyyat məsələləri üzrə ekspert Yasin Mustafayev deyib.



Y.Mustafayevin fikrincə, artıq köhnə avtomobillərin erası bitir: "Avtomobil alanlar hibrid və elektromobilləri seçdiyinə görə, digər nəqliyyat vasitələrinin satışı hazırda çox azdır. Köhnə avtomobil satan şəxslər daha da ucuz qiymət qoyurlar ki, tez satılsın. Beləliklə, bu məsələlər ümumi avtomobil qiymətlərinə də ciddi təsir göstərir. Müşahidə olunan ucuzlaşma prosesi davam edəcək. Həmçinin irihəcmli mühərriki olan avtomobillərin də qiymətlərində enmə gözlənilir. Bu avtomobillərə də tələbat azalacağı üçün onların da qiyməti ucuzlaşacaq. Artıq tanınmış maşın istehsalçıları da öz seçimlərini hibrid və elektromobillər üzərindən edirlər. Çünki bazarın tələbi bu istiqamətdədir".

*Ləman Sərraf*


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Bu gün Bakıda 35, rayonlarda 36 dərəcə isti olacaq



**PSİXOLOQ İZAH ETDİ**

İyunun 4-də Azərbaycanda müşahidə ediləcək hava şəraiti açıqlanıb. Bu barədə SİA-ya Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib. Bildirilib ki, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə zəif duman olacaq.

Şimal-qərb küləyi gündüz şimal-şərq küləyi ilə əvəz olunacaq. Havanın temperaturu gecə 17-22° isti, gündüz 30-35° isti olacaq. Atmosfer təzyiqi 762 mm civə sütunu olacaq. Nisbi rütubət gecə 70-80 %, gündüz 45-50 % olacaq.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin gündüz bəzi dağlıq və dağətəyi rayonlarda arabir yağış yağacağı gözlənilir. Qısamüddətli leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 17-22° isti, gündüz 31-36° isti, dağlarda gecə 7-12° isti, gündüz 15-20°, bəzi yerlərdə 25° isti olacaq.

# Yasamalda dələduz qadın yaxalanıb

Dələduzluqda şübhəli bilinən şəxslər müəyyən olunaraq saxlanılıb. SİA xəbər verir ki, bu barədə DİN-dən bildirilib. Yasamal RPİ 29-cu Polis Şöbəsi əməkdaşlarının keçirdikləri tədbirlərlə bir nəfər şəxsin 26385 manat pulunu dələduzluq yolu ilə almaqda şübhəli bilinən 1972-ci il təvəllüdlü qadın saxlanılıb.

Səbail RPİ 41-ci Polis Bölməsi əməkdaşlarının keçirdikləri tədbirlərlə isə bir nəfər şəxsi aldadaraq hesabına 150 manat pul ödətdirməkdə şübhəli bilinən Rəşad Adışov müəyyən olunaraq saxlanılıb.Hər iki faktla bağlı araşdırma aparılır.




*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3200**